SƏADƏT QƏRİB

# MƏN BİR HƏYAT HEKAYƏSİ





Bakı - 2020

**Redaktor: Mehman Göytəpəli,**

*şair-publisist AYB-nin və AJB-nin üzvü, "Qızıl qələm" və "İti qələm" media mükafatları laureatı, "Molla Nəsrəddin XXI əsrdə" jurnalının və "Haqqın Sədası-press" qəzetinin təsisçisi və baş redaktoru. Səda TV və "Səda News" saytının rəhbəri.*

Korrektor: **Arzu Kəskin**
Dizayn: **Samir Əliyev**

*Səadət Qərib: "Mən bir həyat hekayəsi", "........" nəşriyyatı, Bakı - 2020, .... səh.*

***Səadət Arif qızı Rzayeva (Səadət Qərib)** 10 iyun 1970-ci ildə Goranboy rayonunun Dəlməmmədli qəsəbəsində anadan olmuşdur. Orta məktəbi əla qiymətlərlə bitirmiş, 1986-ci ildə Qəmbər Hüseynli adına Gəncə orta ixtisas musiqi məktəbinin fortopiano şöbəsinə daxil olmuş, 1991-ci ildə təhsilini tamamlamışdır. Səadətdə şeirə, ədəbiyyata həvəs 12-13 yaşlardan başlamışdır. 2016-cı ildə Türkiyədə Hatayın Dörtyol liseyində Ədəbiyyat və Sənət Akademiyası (ESA) və Dörtyol Bələdiyyəsi işbirliyinin keçirdiyi I Türk Dünyası Şeir yarışmasında fərqlənmiş, 300 şairin qatıldığı tədbirdə onun "Şəhidlər" şeiri yüksək dəyərləndirilərək mükafatlandırılmışdır.*

*Səadət Qərib Türkiyədə təşkil olunan bir çox şeir festivallarında iştirak etmiş, uğurlar qazanmışdır. Onun seirləri 2016-cı ildən etibarən Azərbaycan və Türkiyə qəzetlərində, dərgilərində, saytlarda, almanaxlarda və sosial mediada dərc olunur.*

*Ruslan Səfəroğlu gənc şairənin "Darıxmaq nədir", "Sevgi nağılımız", "Kərəmə", "Getmə" və "Eşqin dünyası" şeirlərinə; Fərafim Sadiqi "Sən qatacağam", Sevinc Mensurova ise " Geciken mehebbet "şeirine mahnı bəstələmişdir. O, 1987-ci ildən Moskvada yaşayır. Ailəlidir, 3 övladı var.*

*"Mən bir həyat hekayəsi" müəllifin oxucularla ilk görüşüdür.*

*İSBN:*

S.Qərib
© "........" nəşriyyatı, 2020.

## ÖN SÖZ

### Hər yeni kitab ilk sevdaya qayıdış kimidir

Şairin ilk kitabı, ilk məhəbbət kimi, bir ömür boyunca ləzzəti damaqda qalan ilk busə kimidi. Dodaq həmişə o unudulmaz teması arayır, onu pıçıldayır, ondan söz açır...

Səadət Qəribin "Mən bir həyat hekayəsi" adlı şeirlər kitabına daxil etdiyi "Ümid yağışı" şeirin aşağıdakı sətirlərindən həmin o novbahar ləzzəti duydum. Bu misralar məni xəyalən çox uzaqlara apardı; uşaqlıq, gənclik illərimi gətirib gözlərim önünə qoydu. Doğulub boya-başa yetdiyim bölgənin unudulmaz mənzərələrini dönüb-dönüb yenidən yaşadım:

Doğan Günəş ilə oyandım bu gün,
Yatmış arzularım birdən oyandı.
Unutdum kədəri, unutdum qəmi,
Gözümdə təbiət nura boyandı.

İndi ədəbi məkana yenicə qədəm qoyan cavan yazarlar daha çox dünyanın hər yerindən, ömrü boyu bircə dəfə də olsun qədəm basmadıqları və basa da bilməyəcəkləri yerlərin problemlərindən yazırlar. Ancaq bircə dəfə də olsun qoynundan pərvazlanıb gəldikləri o doğma yerlərin, başı qarlı dağların, yaşıl yamacların səmtini xatırlamırlar. Yad olub gedirlər, ruhları da yadlaşır.

Amma Səadət xanımın bu misraları bütün qanadlı olanların uçub getdiyi yurd yerinə sadiq sərçə çırpıntısını xatırladır. Bu, onun yurd sevgisindən, doğma el-oba təəssübkeş liyindən gəlir. onun şeirlərindən boylanıb qoyub gəldiyimiz yurd yerlərinə baxanda həqiqətən də bir ruhun ağladığını görürük.

Vətəndən uzaqda səadət olmaz,
Qürbətdə gen dünya mənə dardı, dar,
Günəş də başqa sür doğur vətəndə,
Qışı, payızı da bahardır, bahar.

Səadət öz poetik mülahizəsində, qənaətində haqlıdır ki, bu yırğalanan, çalxalanan və hər dəfə yırğalanıb-çalxalandıqca da "yağı yağ üstə çıxıb, ayranı ayranlıq olan" aləmdə təkcə bir fərd, deyək ki, mən, sən, o, biz, siz, onlar yox, zamanın, dövrün özü ağlayır. Bu, unutqanlıqlar, sıxıntı və iztirablar zamanın təbiətindən gəlir.

Ən yaxşı hal orasındadır ki, Səadət öz qəlbinin səsini özünün düşündüyü, qəbul etdiyi kimi şeirə gətirir. Bu prosesdə o, səmimi və həssasdı. Son dərəcə təbiidi. Anasına yazdığı şeirə diqqət edək:

Pis günün ömürü az olar dedik,
Amma ki, xoş bir gün görmədin ana.
Külək saçlarını yollara səpdi,
İllərcə onları hörmədin, ana!

Zamanın ağrısı sinənə çökdü,
Əzablı günlərin boynuna yükdü,
Allaha şükr olsun, Allah böyükdü,
Nə qədər dərd çəkdin, demədin ana!

Müəllifin ən duyğusal, səmimi misraları daha çox heç gözləmədiyimiz məqamda özünü büruzə verir. Səadət daha çox məhz həmin misralarında yaddaqalan, əsl şeir ovqatındadı:

Məsələn, bax elə bu Çərçivə şeirində ki, misralarında:

Gələndə özüylə nə gətirdisə,
Gedəndə hər şeyi aldı əlimdən.
Qəlbimə çəkdiyim portretini,
Artıq çıxarmışam çərçivəsindən.

Silmişəm, adın yox xatirələrdə,
Çəkdiyim acılar gəlməz günaha.
Qəlbimdən asılmış boş çərçivəyə,
Bir daha şəklini qoymaram daha.

Bu sətirlər artıq öz dəsti-xətti, öz nəfəsi olan bir söz adamının könül meyvələridi. Bu meyvələr çox lətif, ləziz və ilk növbədə poetikdi. Müəllifin həyat məramı ilk növbədə ağrıyan, ilk məhəbbət yaralarını sarımağa hesablanıb. O, sevgidən, həsrətdən gələn dərdlərini öz ürəyində, çiynində daşımğından bəxtiyarlıq duyur. Hər cür biganəlik, laqeydlik sindiromu ona yaddı. Bu, yaradıcı insanın xarakterini, həyat missiyasını dəyərləndirən başlıca, vacib şərtlərindəndir. Səadət xanımın şeirlərindən sıx-sıx keçən aşiq, sevgili obrazı hər kəsin doğması və əzizidi; öz sadəliyi, cəfakeşliyi, mərdanəliyi, etibarı ilə bir arada. Ən əsası, bu aşiq öz etibarı ilə unudulmaz və yaddaqalandı. O, öz səssizliyində, dilsiz-ağızsızlığında sevgi təmənnasızlığının məcnunluğunu, Leyli

simasını yaşadır. Bu Məcnun, eyni qədirbilənliklə, bu Leyli Səadətin təqdim etdiyi sevən şəxs üçün əzəmət və dözüm simvolu olan bir çinar da ola bilər, illərin acı rüzgarlarına mətanətlə sinə gərən qaya parçası da, dərdini içinə salıb dil-dil ötən ayna bulaq da... Əsas olan odur ki, şairin şeirlərindən bizə tanış olan obrazlar təbiətin, yerin, göyün, günəşin, ayın, ulduzların dostudu. Onları sevir. Onların ülviyyətini qorumaq üçün çaba göstərir. Sevgisində təmən

nasız və mərdanədir. Onun ədəbi qəhrəmanı öz yurduna əzəldən könül verən bir ruh adamı, vətən, yurd sevdalısıdır. Qədim qaval daşının ritmində el şənliklərinin, xalq sevincinin ritmini duyur. Bütün sevənlər, aşiqi-sadiqlər kimi Səadət də ədəbi obrazları könül divarlarının özülünü qəmdən-kədərdən qoyub.

Ta bineyi-qədimdən sevən könüllərin sızıltısı, çəkdiyi acılar necə varsa, həmin əhvali-ruhiyyə ilə də Səadət xanımın şeirlərindən keçir, oğluna ünvanlanan şeirdə olduğu kimi.

Payızda dünyaya göz açsan da sən,
Ömrümün bağına bahar gətirdin.
Yığıb bu dünyanın gözəlliklərin,
Özünlə dağ boyda nübar gətirdin.

Sənin gəlişinlə dəyişdi dünyam,
Hər şey gözəlləşdi gözümdə, oğul.
Bütün dərdlərimin yuvası uçdu,
Sevinc yuva qurdu üzümdə, oğul.

Eyni səmimi duyğularla da o, körpə balaların, gül balaların çiçək ömrünü, gül qəlbini nəvəsi Kərəmin adı ilə tərənnüm edir:

Payızın sərt çağında,
Soyusada havalar.
Evimiz Günəş doğub,
Nəvəm gətirib bahar.

Allahıma min şükür,
İlahi sevgi vermiş,
Sevgilərin sevgisi,
Nəvə sevgisi imiş!

Körpə quzum Kərəmim,
Xoş gəldin ömrümüzə!
Tanrı böyük xoşbəxtlik,
Sevinc göndərdi bizə!

Təbii ki, yeni şeirləri ilə ədəbi müstəviyə inamla qədəm basan, daimi öz üzərində çalışan, yeni ədəbi zirvələr fəth etmək istəyən bir qələm adamının poetik toplusu haqqında iradla yüklənmiş sözlər, fikirlər də yazmaq olar. Bu məqamlar hər bir yazarın yaradıcılığında olduğu kimi, Səadət xanımın da yeni şeirlər toplusuna daxil etdiyi nümunələdən yan keçməyib. Bu, çox təbii bir haldı. Əsas olan odur ki, sən çıxdığın bu sənət yolu ilə irəliləməkdə, daha önəmli zirvələr fəth etməkdə nə qədər iddialısan, bu sahədə nəfəsin haracan çatır?

Ümid edirik ki, Səadət Qərib bu deyilənlərin fərqindədi, yazmağın və ən əsası nə yazmağın, necə yazmağın, eləcə də oxucularına təqdim etdiyi bu yeni kitabın məsuliyyətini yaxşı bilir.

Təbii ki, bütün sənət gözləntilərinin cavabını onun növbəti illərdə də çap etdirəcəyi kitabları ortaya qoyacaq. O kitab daha şairanə, daha duyğulu və mötəbər olacaq.

Hər yeni kitab ilk sevdalara yenidən qayıtmaq, onu daha da kamilləşdirmək cəhdi kimidi - yadda qalanı da olur, unudulanı da...

Ümid edirik ki, Səadət Qəribin oxucu diqqətinə təqdim etdiyi bu yeni kitabı da yaddaqalan və maraqlı olacaq.

**Rəşad Məcid,**
*Azərbaycan Yazıçılar Birliyinin katibi,*
*"525-ci qəzet"in baş redaktoru*

## MƏN BİR HƏYAT HEKAYƏSİ

Mən bir həyat hekayəsi,
Yazılmamış bir əsərəm,
Oxunmamış bir ürəyəm,
Göz açmadan solan çiçək.

Mən bir heyat hekayəsi...
Neçə-neçə kədər yatır,
ürəyimin ilğım-ilğım
görünməyən qəhərində.
Həsrətimin parçalanmış,
baş daşını gizlətmişəm,
gecələrimin açılmayan,
güman dolu səhərində.

Mən bir həyat hekayəsi...
O unuda bilmədiyim,
ömür güntək çeynədiyim,
amma, uda bilmədiyim,
bir vüsalın əsiriyəm.
Nə leyliyəm, nə Əsliyəm,
Mən yeni, sevgi nəsliyəm...

Mən bir həyat hekayəsi...
Öz içində dustaq olan,
heç vaxt dada bilmədiyim,
eşqin bulanığ tamıyam.
zülmət qaranlıq gecənin,
O İlıq baxışlarında,
soyuq, sevgi dastanıyam...

## ***Mən bir həyat hekayəsi***

Mən bir həyat hekayəsi...
Əldən düşmüş həsrətimin
qəhərini uda-uda,
ömrümün ağ saçlarına,
sığal çəkib oxşamışam.
İçimdəki duyğuları,
İçimdəcə azdırmışam,
ürəyimdə məzar qazıb,
sənin üçün yazılmayan şeirləri,
bircə-bircə basdırmışam...

Mən bir həyat hekayəsi...
Odu sönmüş tənha ocaq...
Bu gün məni duymayanlar,
Bir gün məni oxuyacaq.
Oxuyacaq anlayacaq...
Amma onda gec olacaq...
Amma onda gec olacaq
Mən, mən,
    mən bir həyat hekayəsi...

## SEVƏNİN VARSA

Nəşə də gözəldi, qəm də gözəldi,
Səninlə ağlayıb, gülənin varsa.
Buludtək çağlayıb yağmağa nə var,
Əgər ki, göz yaşın silənin varsa.

Bir könül ağrısın ”dərməyə” nə var,
Dərdini süfrətək sərməyə nə var,
Bir canı yar üçün verməyə nə var,
Əgər ki, qədrini bilənin varsa.

Ürək sirr otağı, alınmaz qala,
Həsrət sevənlərçün şirin bir bəla,
Həsrətin yanında vüsal da ola,
Hicran da gözəldi, gələnin varsa.

Ömür keşməkeşli, dərdlər ocağı,
Şirindir hər eşqin son ömür çağı,
Ölüm də bir yandan aça qucağı,
Sevginə bir ağı deyənin varsa.

Ürək qidasıdır sevgi-məhəbbət,
Bir azca nəvaziş, bir azca şəfqət,
Bax, odur yaşamaq, odur səadət,
Səni özündən çox sevənin varsa!..

## DARIXMAQ NƏDİR

Mən yaxşı bilirəm darıxmaq nədir,
Darıxan ürəyin nisgili çoxdur.
Qəlbimi sevdana verdiyim gündən -
Elə bil köksümdə ürəyim yoxdur.

Sən hardan biləsən darıxmaq nədir?
Su olub arxamca heç axmadın ki,
Çırpınıb sahilə dalğalar kimi -
Mənimçün bir damla darıxmadın ki.

Mən yaxşı bilirəm darıxmaq nədir,
Darıxmaq dərd-qəmə dalmaq deməkdir.
Yığıla başına bütün kainat,
Darıxdın, tək-tənha qalmaq deməkdir.

Mən yaxşı bilirəm darıxmaq nədir,
Darıxmaq, yuxunu unutmaq demək
Gecələr yuxusuz sabaha qədər,
Allahdan əbədi yuxu diləmək.

Mən yaxşı bilirəm darıxmaq nədir,
Darıxan bir insan qışa bənzəyər.
Şüşə qəfəsdəki çırpınan qəlbi,
Qanadı qırılmış quşa bənzəyər.

Mən yaxşı bilirəm darıxmaq nədir,
Qədəri, qisməti durub gəzməmək...
Mən yaxşı bilirəm darıxmaq nədir,
Çarəsiz, ümidi durub gözləmək...

## GÜNAHKARI SƏN

Səni gördüyümdə hər an sevgilim,
Könlümdən dəli bir qiğılcım qopur,
Deyirdim kimsəni sevmərəm, amma,
Bu eşqin dumanı ruhuma hopur.

Susqundu, səssizdi yorğun ürəyim,
Səni sevən gündən sığmır köksümə,
Çırpınır dənizin dalğalarında,
Şıltaq uşaqlartək qaçır üstümə.

Özüm də bilmədim necə, nə oldu,
Sanki bir yuxudur, gəlmir yadıma,
Bu dəli sevgini xəyal edirdim,
Xoş gəldin, sevgilim, sən həyatıma.

Sevməyi bilmədim mən sənə qədər,
Bu eşqi sən mənə, sən öyrətdin, sən!
Məndə bu sevgini yaradan insan,
Sevgimə səbəbsən, səbəbkarı sən,
Bu sevgi gunahsa, gunahkarı sən.

## BOŞ ÇƏRÇİVƏ

Gələndə özüylə nə gətirdisə,
Gedəndə hər şeyi aldı əlimdən.
Qəlbimə çəkdiyim portretini,
Artıq çıxartmışam çərçivəsindən.

Silmişəm, adı yox xatirələrdə,
Çəkdiyim acılar gəlməz günaha,
Qəlbimdən asılmış boş çərçivəyə,
Bir daha şəklini asmaram daha.

Bəlkə də eşqinin gözü tutulub,
Qaməti əyilib, beli bükülüb,
Bəlkə də ruhumun tutqun üzünə,
Bir nakam sevdanın əli çəkilib.

A bəxtim, burnumun ucu göynəyir,
Səni harda gəzim, harda axtarım?!
Səni gəzmədiyim bircə yer qalıb,
Son evim, son yuvam, o son məzarım.

## YENƏ

Yenə çox uzaqlara,
Dikilibdir gözlərim...
Buludlara sığınıb,
Bükülübdür gözlərim.

Yenə ürək təklənib,
Boynun büküb köksümdə,
Yenə susub dodaqlar,
Dünya yatır gözümdə.

Yenə payız yükünü,
Daşıyacaq ürəyim.
Qəlb dönməz inadından,
Yaşayacaq ürəyim.

Həsrət çəkmək zülümdür,
Vüsal baldan şirindir,
Vüsalın gözləri də,
Dəryadan da dərindir.

Yenə gecələrimdə,
Ulduzuma dönmüsən.
Ruhunu ruhum ilə,
Göy üzünə gönmüsən.

Yenə nur səpəcəkdir,
Yolumda məhəbbətin.
Bahara dönəcəkdir,
Yenidən Səadətin!

## BİR GÖZÜM AĞLADI...

Belədir əzəldən dünyanın işi,
Kədərlə sevincin qoşa gərdişi,
Fələkdən öyrəndim acı gülüşü,
Bir gözüm ağladı, bir gözüm güldü.

Hüzura həsrətlə uzaqdan baxdım,
Dolçadan süzüldüm, xəlbirdən axdım,
Bu sevda yolunda canımı yaxdım,
Bir gözüm ağladı, bir gözüm güldü.

Mənim qəhrəmanım, öyün yaramla,
Sevgimə dəyəri verdin  qramla,
Sənin əsərinəm oxu aramla,
Bir gözüm ağladı, bir gözüm güldü!



## EŞQİM

Eşqimdən yazacam şeir diliylə,
Eşqimin dilindən söz almış kimi.
Alnımın yazısı elə yazılmış,
Lap əruz vəznində yazılmış kimi.

Eşqim vəfalıymış, tutmuş sözünü,
Utanıb niqabla örtüb üzünü.
Vüsalın əlindən  asmış özünü -
Kiprikdən damlalar asılmış kimi.

Eşqimə ağlım da çaşıb, mat qalıb,
Duyğu dənizimdə hay-haray salıb,
İlk andan qəlbimi əlimdən alıb -
Döyüşdə zəfəri qazanmış kimi.

Eşqimin gözləri duman, çənimdir,
Ruhumun saçına düşən dənimdir.
Ölsə də, qalsa da bu eşq mənimdir -
Məzarı qəlbimə qazılmış kimi.

## GÖZ YAŞIM

Payızda köç edən durnalar kimi,
Sanki köç etmisən uzaq ellərə.
Yudu arzuları yağan yağışlar.
Mən ki möhtac idim isti əllərə -
Göz yaşım qarışıb daşan sellərə.

Sən varkən gözlərim şəfəq saçardı,
Könlümdə hər sabah güllər açardı,
Kədər sevincimdən, uzaq qaçardı.
Aldın sevincimi atdın yellərə -
Göz yaşım qarışdı daşan sellərə.

“Qayıt gəl!” - deməyə acizdir dilim,
Nə səsim çatacaq, nə də ki əlim,
Varlığın ovudur qəlbimi, gülüm.
Eşqimin naləsi düşdü dillərə -
Göz yaşım qarışdı daşan sellərə.

Payızda saralıb-solan yarpağam,
Susuzluq içində yanan torpağam,
Sonalı bir göləm, bağçalı bağam.
Sən mənim sevgimi atdın çöllərə -
Göz yaşım qarışdı daşan sellərə.

## YENƏ HEKAYƏMDƏ YER ALA BİLSƏN

Sən məndən xəbərsiz getdiyin gündən,
Qələmim qırılıb, yaza bilmirəm.
Məhəbbət haqqında yazdıqlarımı,
Əlim də gəlməyir, poza bilmirəm.

Qəlbimdə nə vardı silib, apardın,
Didərgin salmısan hər bir duyğumu.
Sən özün-özünü məndən qopardın,
Amma, sənsizliyin çəkir qayğımı.

Yolumuz ayrılan o gündən bəri,
Saralıb qəlbimin hər bir varağı.
İlham da gedibdir səssiz-səmirsiz
Yoxdur bir xəbəri, yoxdur sorağı...

İndi möcüzəyə qalıb gümanım,
Yenə “HEKAYƏMDƏ” yer ala bilsən
Ürək paramparça olsa da canım -
Vaz keçmir əhdindən, bir bilə bilsən.

## SƏNİ SEVMƏK

Xəzana çevrilmiş sevgi bağımda,
Eşqinlə açıldı solan güllərim.
Hərarət gətirdin soyuq ruhuma,
İsindi ovcunda donmuş əllərim.

Səni tanıyandan anladım bunu,
Ən gözəl duyğudur sevmək, sevilmək.
Ən böyük xoşbəxtlik budur həyatda,
Sevgiylə yaşamaq, sevgiylə ölmək.

## SEVGİDƏN GÖZƏL NƏ VAR Kİ

Eşqi əyləncəyə çevirənlərin,
Tər-təmiz hisslərdən xəbəri yoxdu.
Yalan ümid vərib əylənənlərin,
Sevgi meydanında hünəri yoxdu.

Qırdığın qəlblərin ahı tez tutar,
Etdiyin əməllər çıxar qarşına.
Elə karıxarsan,  çaşıb qalarsan,
Etdiyin nələr var, gələr başına.

Həyatda sevgidən gözəl nə var ki,
Sevgidir yaşadan hələ dünyanı.
Sevgi müqəddəsdir, sevgini qoru,
Sevgisiz neynirik belə dünyanı.

## GEDİRƏM BU ŞƏHƏRDƏN

Arxamca bir şəhər xatirə qoydum,
Əliboş gedirəm ürəyim kimi.
Ona ehtiyacım olub həmişə,
Həm suyum, həm duzum, çörəyim kimi.

Dilsiz körpə kimi qaldım kimsəsiz ,
Şəhər ögeyləşdi, yadlaşdı mənə.
O qədər çəkmişəm qayğılarını,
Kaş dönə biləydim, kaş  sənə yenə.

Necə də dəyişib bu şəhər Allah,
Üzünü qar tutub, rəngi ağarıb.
Başını Xəzərə  söykəyib yatıb,
Onu qış yuxusu çoxdan aparıb.

Şəhərin səs -küyü azalıb sanki,
Qəlbimin harayı çoxalıb, çox-çox.
Mənim gözlərimin işığı səndin,
Kor üçün nə fərqi Günəş var, ya yox.

Qəlbimi üşüdən qış fəsli deyil,
Acı taleyimə o çoxdan gəlib.
Daha bu şəhərdə kimim var mənim,
Sevgim ölən gündən şəhərim ölüb.

Əlvida ey şəhər, gedirəm səndən,
Bir zaman çox doğma gəlirdin mənə.
Səni də sevmişdim onunla birgə,
İndi ikiniz də yadsız qəlbimə.

## QAYIT GƏL

Sönüb ocağımız sən gedən gündən,
Nə qazan qaynayır, nə soba yanır.
Yox olub evimdən ruzi-bərəkət,
Dərdim sənlə yatır, sənlə oyanır.

Sənin ətrin imiş evi bürüyən,
Gül ətri yanında ətirsiz qalıb.
Evimin baharı getdiyi gündən,
Yağışın altında çətirsiz qalıb.

Boynuma alıram, incitdim səni,
Qırdım ürəyini inan, bilmədən.
Ayrılıq başımın üstünü alıb,
Peşmanam qayıt gəl, sənsiz ölmədən.

Bilmədik, şeytanmı araya girdi,
İncitdik durmadan bir-birimizi.
Əlini ver, Aya, Günəşə dönək,
Unudaq birlikdə bu səhvimizi.

## MƏNİM DEYİLSƏN

Başının üstündən əsir küləklər.
Gözündə gizlənir min cür kələklər.
Səni məndən aldı özgə ürəklər,
Yox!. Daha sən mənim, mənim deyilsən!...

Vəfanı görmədim, yumdum gözümü,
Lal etdin hər yerdə kəsdin sözümü,
Gözümdən düşürdüm özüm özümü,
Yox!. Daha sən mənim, mənim deyilsən!...

Mənsiz daşa dönüb tək qalacaqsan,
Yanıb, xəzan kimi, saralacaqsan.
Dilin tutulacaq, lal olacaqsan,
Yox!. Daha sən mənim, mənim deyilsən!...

Sənin hisslərinlə oynayacağam,
Gizli yaran olub, qanayacağam,
Daha yalanına uymayacağam,
Yox!. Daha sən mənim, mənim deyilsən!...

## DÖNDÜ

Sıxdı ürəyimi səssiz gedişin,
Ardınca suallar dumana döndü.
Axdı ürəyimə hicranın yaşı,
Vüsalın əlçatmaz zamana döndü.

Mənə səndən qalan qəm-kədər oldu,
Heyif o eşqimdən dərbədər oldu.
Bilmədim səfərin nə səfər oldu,
Xəbərsiz gedişin yamana döndü.

İnanma, ürəyim çağlayacaqdı,
Adını andıqca ağlayacaqdı,
Sevinc qapısını bağlayacaqdı,
Vüsalın dönməsi amana döndü.

O gülər üzünü səadət sandım,
Şirin sözlərini məhəbbət sandım.
Səni ruhum boyda sədaqət sandım,
Daha görüşümüz gümana döndü -
Mənim eşq hekayəm romana döndü.

## İNCİMƏ ÜRƏYİM

İncimə ürəyim,
səni çox incitmişəm,
Səni gözlərimin önündə
sanki heç görməmişəm.
Nə gündüzün gündüz olub,
nə gecən gecə
sənə əzab verib,
dərd olmuşam gizlicə.
Hıçqırıqla döyünmüsən,
yanmısan, yaxılmısan.
Hər dəfə dərd, qəm çəkib,
bir küncə sıxılmısan.
Daha istəmirəm bir də
alışasan, yanasan,
Bir daha dərd, qəm olan
tərəfə boylanasan.
Bir rahatlıq tapıram
sinəmdə döyünəndə,
İçimdə böyüyürsən
səninlə öyünəndə.
Sadəcə bir boşluğam,
sanki zaman dayanıb,
Bəzən elə sanıram,
mənim gözümdə sevgi,
Səndəsə ruh oyanıb....
Bahar gəlmir bağıma,
Xəzan olur duyğular,

İçimi qurdtək yeyir.
tükənməyən sorğular.
Yalnız azan səsində
tapıram mənliyimi.
Səni sevirəm, Allah
Mənim ürək səsimlə,
tanıtdın kimliyimi...

## DÜNYANIN KASIB BƏNDƏSİ...

Əzizim, qəlbimi tərk edən gündən,
Bu canım boşluqda yaşıya bilmir.
Beşikən məzara dönən bu ürək,
O ölmüş sevgimi daşıya bilmir.

Sən ülvi sevgimi dara çəkmisən,
Əzabla, acıyla inləyən ürək.
Gör məni haradan, hara çəkmisən,
Ay məni gah öyən, gah döyən ürək.

Var-dövlət bilirdim səndə eşqimi,
Sanırdım dünyanın ən zənginiyəm.
Məhəbbət iflasa uğrayan gündən -
Dünyanın ən kasıb bəndəsiyəm mən.

## BİZ DƏ BƏNZƏYİRİK

Xəyalın da səndən vəfalı çıxdı,
Bir an buraxmadı, getmədi məndən.
Məni ümidimə bərk-bərk sarıyıb,
Qorudu hər zaman düşüncələrdən.

Girib aramıza zalım ayrılıq,
Kök atıb, bir daha çıxası deyil.
Elə yorulub ki, yorğun gözlərim,
Bir daha kimsəyə baxası deyil.

Dərdi daşımaqçün yaranmışam mən,
Hicran hökm eləyir bu eşqimizə.
Gecə də, gündüzə həsrət qalıbdır,
Biz də bənzəmişik gecə-gündüzə.



## YANDIM ŞAM KİMİ

Bu eşqi qəlbimdə bağlayacağam,
Sən ora heç zaman girməyəcəksən.
Biryolluq siləcəm ömrümdən səni,
Sən bunu əbədi bilməyəcəksən.

Dənizə atacam şəkillərini,
Dalğalar aparsın uzaq sahilə.
Mənə gətirdiyin çiçəklərini,
Daha neyləyirəm mən innən belə.

## HAQSIZLIQ

(***Bütün haqsızlığa uğrayan qadınlar adından)***

Mahir ovçu kimi nişan almısan,
Ovlayıb qəlbimi etmisən girov.
Sən ovçu olsan da, mən ov deyiləm,
Azad et qəlbimi, əsirlikdən qov.

Bu sınıq qəlbimə bir az rəhm elə,
Azad etməsən də, burax zaminə.
Bir az nəfəs alım, bir az düşünüm,
Dönüb qulluğunda duraram yenə.

İztirab odunda qovrulan gündən,
Sadəcə özümə olmuşam düşmən.
Hökmünə baş əyib, hüzurundaca,
Özümü günahkar göstərmişəm mən.

## SƏN OLMASAYDIN

Əgər həyatımda sən olmasaydın,
Məhəbbət dadını bilməyəcəkdim.
Əgər sevməsəydim səni ürəkdən.
Həsrətdən, hicrandan ölməyəcəkdim.

Qəlbimin çiçəyi solmaq istəmir,
Sevgi köksümdəki açan çiçəkdir.
Əlçatmaz olsa da vüsalın özü,
Bu yalan dünyada, sevgim gerçəkdir.

Nə zaman övkəsi, nə ayrılığın,
Çatmadı qəlbimdən səni almağa.
Xəyalın, nə də ki, xatirələrin,
Məni buraxmadı sənsiz qalmağa.

Qəmli baxışlarım kədər süzəndə,
Göz yaşım kiprikdən asdı özünü.
Ürəyim yerini əziz tutaraq,
Sevmədi kimsəni, tutdu sözünü.

Əgər həyatımda sən olmasaydın,
Məhəbbət dadını bilməyəcəkdim.
Əgər sevməsəydim səni bu qədər,
Həsrətdən, hicrandan ölməyəcəkdim.

## KEÇMİŞİ KİLİTLƏYƏCƏM

Keçmişi qıfıla kilitləyəcəm,
Qapımı sabaha geniş açacam.
Səninlə yaşanan xatirələrdən,
Canımı götürüb bir gün qaçacam.

İntihar eyləyən ümidlərimi,
Ziyarət etməyə gücüm yox daha.
Eşqim peşman olub, könlüm pərişan,
Bu sevda ağrısı ölümdən baha.

Əzrail köksümə çökdüyü zaman,
Görəcək atəşdən kül olub ürək.
Desəm də al, apar məni özünlə,
Aparmaz, ölü ruh nəyinə gərək.

Nə gücüm qalacaq, nə də ki, heyim,
Əcəli gələndə böyük sevgimin.
Səssizcə seyr edib, onun dəfnini,
Halına yanacam nakam eşqimin.

Təsəllim zamandır, çatsa dadıma,
Canlanar arzular, bəlkə, sevinə.
Sarsılan duyğuma nəfəs gələrsə,
Bəlkə ayaq  açar ürək evimə.

Əl çəkdim keçmişin mən yaxasından,
Təbiət eşqimdən qidalanacam.
Oyadıb hissləri qış yuxusundan,
Həyat sevgisini xatırladacam.

## İLHAM PƏRİM

Bu həyat üstümə hücum çəkəndən,
Qələmlə ürəyim girib sazişə.
Misralar vərəqdə sirdaş olublar,
Məəttəl qalıbdır ağlım bu işə.

Lal ürək yamanca gəlibdir dilə,
Sanki sərkərdədir çıxıb döyüşə.
Xəyalım səyahət edir göylərə,
Kövrək duyğularım düşüb təşvişə.

Susqun zənn etdiyim ilham pərisi,
Həm kədər gətirib, həm sevinc-nəşə.
Ötən çağlarımı yazdırıb mənə,
Ruhumda dolaşıb, dönüb dərvişə.

İstərəm kirəkeş olmasın pərim,
Taxt qursun qəlbimdə, tapsın bir guşə.
Rəssam baxışıyla görüm sabahı,
Biryolluq son qoyum ötən keçmişə.

## SEVGİM İSRAF

Köksümə sığmayır daha ürəyim,
Çırpınıb, qol-qanad açmaq istəyir.
Qəfəsdə yaşayan arzu, diləyim,
Murada çatmaqçün uçmaq istəyir.

Necə qəddar olar insan özünə,
Bağrımın başını hər an teylədim.
Xərclədim sevgimi əsirgəmədən,
Zəngin xəzinəmi israf eylədim.

Hədiyyə etməyib Allah ürəyi,
Onu əmanəttək verib insana.
Zamanı çatanda geri alacaq,
Kaş ki, etməsəydik xəyanət ona.

## SOYUQ BAXIŞ

Üşütməz insanı şaxtanın gücü,
Bir soyuq baxışın nəfəsi qədər.
İsitməz qəlbini günəş şöləsi,
Sevgi, məhəbbətin istisi qədər...

## ŞAİRLƏR VƏ ŞEİRLƏR

Sanki bu dünyanın adamı deyil,
Şair ürəyinin ahı-zarı var.
Sevgidən yazırlar bütün şairlər,
Hər sevən şairin gizli yarı var.

Şairin könlündə duyğu dənizi,
Sahilə dalğatək atar özünü.
Gah coşar dəniztək, gah səssiz qalar,
Gah mavi səmada tapar özünü.

Şairin gözündən şeirlər axar,
Bütöv bir dünyadır şair ürəyi.
Şair sabahına başqa cür baxar,
Tükənməz heç bir vaxt arzu-diləyi.

Hər kəsin dərdinə şərikdir şair,
Tapar şeirində insan özünü.
Kimsə cəsarətlə demədiyini,
Şairlər söyləyər sözün düzünü.

Şairlər məlhəmdir bir çox yaraya,
Sağalmaz yaraya sanki qan verər.
Nifrəti yox edər, kini yox edər,
Ümidə, inama, ruha can verər.

Şair dünyasının qapısı açıq,
Səyahət edərsən vaxtsız-vədəsiz.
Şair var, ölməzdir, yaşar əbədi,
Şeir var, toxunar ruha xəbərsiz.

Şair doğulmasan, şair olmazsan,
Hər yazan o böyük ada ucalmaz.
Sevgidən yoğrulub şairin canı,
O yaşa dolsa da, əsla qocalmaz.

## ŞƏHİD VƏ ANASI

Ağlama ay ana, qurbanın olum,
Oğlun ucalıbdı Şəhid adına.
Tək bir göz yaşına dözə bilmirəm,
Bilmirəm mən çatım necə dadına.

Vətəni sevdirib şəhidlər bizə,
Vətənçün fədakar olmaq gərəkdir.
Vətəni öp ana, qoy gözün üstə,
Ağlama, ağlama, bu bir şərəfdir.

Daha çox düşməni məhv edəcəyik,
Bu yolun könüllü qurbanlarıyıq.
Son damla qanımız tökülsə belə,
Hər şəhid qisasın biz almalıyıq.

Hələ də Qarabağ gözləyir bizi,
Bu ad yaddaşlara əbədi hopub.
Ağlama can ana, sən düşünmə ki,
Ruhumuz torpaqdan əbədi qopub.

Şəhid anasısan, məğrur dayan sən,
Fəxr elə oğlunla, bu bir zinətdir.
Vətənçün, torpaqçün ölən hər kəsin,
Əbədi dünyada yeri cənnətdir.

## BİR QUCAQ VERGÜL

Bu eşq-məhəbbətdən, nə olar doyma,
Daha yaşanacaq günlər gətirdim.
Gözəl sevgimizə nöqtəni qoyma,
Mən sənə bir qucaq vergül gətirdim.

Hər ötən  gecənin vardır səhəri,
Keçmişə nöqtə ək, bitsin qəhəri,
Ümidə könül ver, olsun bəhəri,
Mən sənə bir qucaq vergül gətirdim.

Suallar içində beynini yorma,
Xəyalla oynayıb, şübhələr qurma,
"Eh..." deyib sözümə nöqtələr qoyma,
Mən sənə bir qucaq vergül gətirdim.

Güvəncə kəc  baxsan, güvən itəcək,
Mən nöqtə qoydumsa, eşqim bitəcək.
Vergülüm tükənir, bir gün bitəcək,
Mən sənə bir qucaq vergül gətirdim.

## SEVGİMLƏ SINAĞA ÇƏKMƏ, ALLAHIM

Sevilən gözlərin baxışındayam,
Vüsal yollarıma kol-tikan əkmə.
Sevgi nağılının naxışındayam,
Məni sevgim ilə sınağa çəkmə,

Keçilməz yolları aşaraq gəldim,
Kədərin əlindən qaçaraq gəldim,
Əlimi göylərə açaraq gəldim,
Məni külə dönmüş ocağa çəkmə.

Göydəki ulduztək axıb, sönərəm,
Qəlbimə sevgidən divar hörərəm,
Vüsala çatmasam, inan, ölərəm,
El-oba ağzında qınağa çəkmə.
Məni sevgim ilə sınağa çəkmə.



## ELƏ ZAMANDA ÇIXDIN QARŞIMA

Elə bir zamanda çıxdın qarşıma,
Sən doğan günəşdin, mən sönən ulduz.
Nəğməydin, şeirdin, sevgi doluydun,
Mənsə boş dünyamda kimsəsiz, yalqız...

Elə bir zamanda çıxdın qarşıma,
Mənə yad olmuşdu sevgi kəlməsi.
Duyğular əlini qoynuna qoyub,
Qəlbimi döyürdü sevginin səsi.

Elə bir zamanda çıxdın qarşıma,
Dərdindən sağalmaz yara almışam.
Sən elə zamanda çıxdın qarşıma,
Sevən çağım keçmiş, qəlbsiz qalmışam.



## SƏSLİ SƏSSİZLİK...

Qəlbimi bürüyüb yeni qayğılar,
Baxıram göylərə münəccimlər tək.
Sinəmdə paslanıb küskün duyğular,
Bilirəm halımdan inciyib ürək..

Yağışlı, şimşəkli olsa da eşqim,
Sevginin şövqündən yanırdı gözüm.
Ürək dil açmışdı məhəbbətinlə -
İndi sevdasına qalmayıb dözüm.

Bu həyat nə qədər yorsa da məni,
Sevgimə sığınıb yaşadım mətin.
Ürəyə yol tapmaq asandır bəlkə,
Sonadək orada yaşamaq çətin.

Bilirsən, sən kimsən - deyim qulaq as,
Sən mənim ömrümün sənsizliyisən...
Qəlbimdən getsən də unutma bunu -
Qəlbimin ən səsli səssizliyisən...

## QƏLBİMDƏKİ SƏN

Dönüb bir anlığa baxdım keçmişə,
Vəfasız, sevdiyim qəlbimə dəyib.
Vaxtsız sevgimizin bağrı sökülüb
Vüsalı həsrətin belini əyib.

Alışan o alov çoxdan sönsə də,
Hələ xatirəmdə közü qalıbdı.
Vəfasız eşqinə dönük çıxsa da,
Könlümdə bir eşqin izi qalıbdı .

Gəzdim ömür boyu itən eşqimi,
Heç yerdə mən onu tapa bilmədim.
Əllərim əlindən üzülsə belə,
Qəlbimdəki səndən qopa bilmədim.

## DAHA AĞLAMIRAM Kİ...

Sən baxma aramsız göz yaşlarıma,
Mən daha səninçün ağlamıram ki...
Daha yalan eşqə, yalan sözlərə
Vəfasız kəsə yas saxlamıram ki...

Daha ağlamıram vəfasızlara,
Sevənlər könüldə məzar qazıbdır.
Daha ağlamıram mən o kəslərə,
Neçə könül qırıb, əhdi pozubdur.

Daha ağlamıram vəfasız “yara”,
Çox uzun zamandı çıxıb səfərə.
Ağlayram düzü, bilirsən kimə?
Doğmaykən yad olan iki nəfərə.
Mən daha səninçün ağlamıram ki...

## BU ÜRƏK

Bircə dəfə sən könlümə qonaq gəl,
Qoy sevinsin, sevgi dolu bu ürək.
Qoy görüşsün xəyallarım vüsalla,
Hicranımın yolu olub bu ürək,
Sənsiz sənlə dolu olub bu, ürək.

Bircə dəfə dolaş mənim qanımda,
Gör nələr var, səni sevən canımda,
Sən məndəsən, olmasan da yanımda,
Həsrətindən dəli olub bu ürək
Sənsiz sənlə dolu olub bu ürək.

Bircə dəfə ol arzumun pənahı,
Mən çəkəcəm bu, əzabı, günahı,
Bircə dəfə ol, gecəmin sabahı,
Sevdamızın qulu olub bu  ürək
Sənsiz sənlə dolu olub bu ürək.

Bircə dəfə yaşa mənlə zamanı,
Qoy nurlansın eşqimizin gümanı,
Gözləyirəm qovuşacaq o anı,
Ululardan ulu olub bu  ürək
Sənsiz sənlə dolu olub bu ürək.

## ƏBƏDİ SEVGİ

Dolub gözlərinə göz yaşı kimi,
Süzülüb yaşardım yanaqlarında.
Damıb kipriyindən aslı qalardım,
Təbəssüm olardım dodaqlarında.

Həsrətlə hicranı büküb bir yerdə,
Gizlədib özümdən uzaq tutardım.
Könlünə bu gecə qonaq gəlsəydim,
Girib ürəyinə orda yatardım.

Qarışıb havaya, bulud olardım,
Yıxılıb qalardım kipriyin üstə,
Sənin xatirində xəyal qurardım,
Uçardım arzutək başının üstə.

Səyahət etsəydim sənin ruhuna,
Duyub hənirtini fikrə dalardım.
Səninlə bir ömür, durub yanaşı,
Mavi göy üzündə, bitib qalaydım.

## SEVGİ NƏDİR

**Səadət Novruzqızı:**
Sevgi kədər, sevgi qüssə, sevgi qəm,
Sevgi şirin, sevgi nəşə, sevgi dəm,
Onsuz olan həyatımın dadı kəm,
Hardan düşdüm bu sevdaya,  bilmirəm.

**Səadət Qərib:**
Sevgi ürək, sevgi dilək, sevgi can,
Sevgi duyğu, sevgi qorxu, həyəcan,
Onsuz yaşadınsa yarı, ”yarımcan”
Hardan düşdüm bu sevdaya, bilmirəm.

**Səadət Novruzqızı:**
Gah məst edir, gah qəst edir canıma,
Gah gen düşür, gah da gəlir yanıma,
Nəşə kimi yeriyibdi qanıma,
Necə düşdüm bu sevdaya,  bilmirəm.

**Səadət Qərib:**
Nə gecəsi, nə gündüzü bəllidir,
Yaman havalıdır, yaman yellidir,
Dindir, dil-dil ötər, şirin dillidir,
Necə düşdüm bu sevdaya,  bilmirəm.

**Səadət Novruzqızı:**
Gözdə sevinc, üzdə gülüş, dildə can,
Elə deyir gecə-gündüz alış, yan,
Yaxından da, doğmadan da doğmasan,
Necə düşdüm bu sevdaya, bilmirəm.

**Səadət Qərib:**
Gah güldürər, gah dərd verər, gah kədər,
Gah şirindir, gah acıdır, gah, zəhər.
İnanmazdım ruhumu da titrədər,
Necə düşdüm bu, sevgiyə, bilmirəm
Hardan düşdüm bu, sevdaya, bilmirəm.

## SƏN OLDUN

Eşqin əzabında boğulan məndim?
Sevgi dənizində üzən sən oldun.
Həsrətin yükünü çəkən mən idim,
Vüsalın qoynunda gəzən sən oldun.

Fədakar qəlbimi yoran mənəm, mən!
Yolunun üstündə duran mənəm, mən!
Payız yarpağıtək solan mənəm, mən!
Bu titrək qəlbimi üzən sən oldun.

Bir qəlbi qırmağı bacarmadım heç,
Yaralı könlümü heç sarmadın, heç!
Gözümdən yol ara, ürəyimə keç!
O yolda ilk və son süzən sən oldun.

## QALMADI

Demə, o yollarda gözləyənim var?
Daha yollarında gözüm qalmadı.
Həsrətin çox yordu baxışlarımı,
Sənə deyiləsi sözüm qalmadı.

Bu gözlər həsrətdən qaynar bulaqdı,
Zülmət gecələrdə yanan çıraqdı,
Hardan biləydim ki, sevgin qonaqdı,
Yaxdığın atəşin közü qalmadı.

Adını dilimdə əzbər etmişəm,
Hər acı kəlməni şirin bilmişəm,
Əbədi sevgimə mən and içmişəm,
Dilimin deməyə sözü qalmadı.

İnsafsız deməyə dilim gəlmədi,
Rəsmini cırmağa əlim gəlmədi,
Əcəli çağırdım, ölüm gəlmədi,
Daha bu sevdamın özü qalmadı.

Qəlbimə yeni eşq əkə bilmədim,
Dərdimi açmışdım, bükə bilmədim,
Yollardan gözümü çəkə bilmədim,
Əfsanə eşqimin izi qalmadı.

## SƏNDƏ

Qoy yazım sevgimi təbim var ikən,
Bu qırıq qəlbimin sənə sözü var.
Duyğular dil açıb nəğmə oxuyur,
Titrəyən qəlbimin səndə gözü var.

Günəşi olduğun səhərlərimin,
Gecəsi dözülməz şəhərlərimin,
Adına qoşduğum şeirlərimin,
Hər bir misrasının sənə sözü var.

Qışın ortasında, bahar, yazımın,
Nəğməsi olduğun kaman-sazımın,
Taleyə, qismətə olan nazımın,
Şirin xülyaların səndə izi var.

Çəkilib bir küncə, hey için-için,
Hər gün ağlayıram mən sənin üçün.
Bu qədər həsrətin, hicranın neyçün?
İnsafsız sevginin səndə üzü var.

Hər gecə gördüyüm röyalarımsan,
Xəyalən bildiyim reallarımsan,
Gerçək olmayacaq arzularımsan,
Sönmüş ocağımın  səndə közü var.

## GECİKƏN MƏHƏBBƏTİM

Gülüşlərin gül açıb,
Bahar gəlib qışıma.
Elə gözəl sevirsən,
Sevgin gəlir xoşuma.
Qara sevda bu imiş.
Oda gəldi başıma.
Gecikən məhəbbətim,
Durub gəlib xəbərsiz.
Axı necə yaşadım,
Bu qədər ömrü sənsiz.

Dönüb nağıl olmusan,
Röyalara dolmusan.
Çəkib gecələrimdən,
Yuxuları almısan.
Bir vaxt dan yerim idin,
İndi səhər olmusan.
Bu qərib səadətim,
Hardan düşüb xəbərsiz?
Axı necə yaşadım,
Bu qədər ömrü sənsiz.

Bəlkə bir dan ulduzu,
Bəlkə danın özüyəm,
Sən nəğmənin bəstəsi,
Mən nəğmənin sözüyəm.

***Səadət Qərib***

Könlüm səni görəndən
Həyatımdan razıyam.
O qumlu səhralarda
Bir düzəndim çəmənsiz.
Axı necə yaşadım,
Bu qədər ömrü sənsiz.

Səndən öncə, əzizim
Çox çəkmişdim cəfalar.
Sağalmaz yaralarım,
Sənlə tapdı şəfalar.
Anladim ki, hələ var,
Ölməyən eşq, vəfalar.
Sən varsan ki, mən varam
Dünyası dərdsiz, sərsiz.
Axı necə yaşadım,
Bu qədər ömrü sənsiz?!



## TƏK BİR CÜMLƏMSƏN

Gəl sənə danışım məhəbbətimdən,
Yazdığım şeirdi, duyğusu sənsən.
Var bitən hekayə, bitən cümlələr,
Sən mənim bitməyən sevgi kəlməmsən -
Nöqtəsiz, vergülsüz cümlələrimsən.

Gəl kövrək anlardan danışım bir az,
Dinlə nağılımı sən qəlbinə yaz,
Gəl pozma əhdini etmə etiraz.
Ağrıma-acıma sən bir məlhəmsən -
Nöqtəsiz, vergülsüz cümlələrimsən.

Mən sənin, sən mənim, bir-birimizin,
Köləsi olmuşuq bu sevgimizin,
Nə deyim?! Şeirimə dolmusan özün,
Sən alın yazımda kağız, qələmsən,
Nöqtəsiz, vergülsüz cümlələrimsən.

Səni nəfəs kimi içimə çəkdim,
Adını oxşayıb şeirimə bükdüm,
Gözümü getdiyin yollara dikdim,
Könlümdən ilk ötən, son ötən də sən -
Nöqtəsiz, vergülsüz cümlələrimsən.

## SÖZ QOYMAMIŞAM

Axtarma yolları, axtarma daha,
Keçdiyim yerlərdə iz qoymamışam,
Köhnə məktubları açıb, oxuma,
Məni xatırladan söz qoymamışam.

Nə üçün mənimtək sevə bilmədin?
Gizlində saxladın hər nəyin vardı,
Payıza, qışına bir hərarətdim,
İndi güllü yazın borandı, qardı.

Sənin öldürdüyün o təmiz eşqi,
Daha bir kimsədən uma bilmərəm.
Köçüb axirətə, başdaşım üstə,
Baş qoyub gözümü yuma bilmərəm.

## BARIŞAMMIRAM

Yaman darıxıram səndən küsəndə,
Sıxılır ürəyim, dəyişir halım.
Dostlarla əylənib deyib-gülsəm də,
Yenə də pisləşir hər dəm əhvalım.

Qəlbimi qırınca gör nələr olur,
Çökür ürəyimə dünyanın qəmi.
Göylər bürünsədə ulduz selinə,
Görürəm orda da mən cəhənnəmi.

Titrəyir qələmim varağın üstə,
Dönüb lal oluram, danışammıram.
İncitdin qəlbimi, incitdin məni,
Sevdiyim ay adam, barışammıram.

## GƏL

Hicranın əlindən zara gəlmişəm,
Həsrətdən ürəyi yara, gəlmişəm,
Bilmirəm, mən hardan-hara gəlmişəm?
Gəl, qurtar hicranın əlindən məni.

Rəsminə sarılıb, öpdüm doyunca,
Ağladım hər sabah tək oyanınca,
Həsrətlə savaşdım illər boyunca,
Gəl, qurtar hicranın əlindən məni.

Gəl, artıq göz yaşım dönübdür selə,
Gəl, bitsin bu əzab, bitsin bu çilə,
Dərdimi söylədim küləyə, yelə,
Gəl, qurtar hicranın əlindən məni.

## UNUT MƏNİ

Unut, birdəfəlik unut, sən məni,
Daha yamaq olma sevgi şeirimə.
Sən demə, yalanmış əhdin, ilqarın,
Söylə, kimi qoydun mənim yerimə?

Unut, birdəfəlik unut, sən məni,
Sanmışdım sevirsən sevdiyim kimi.
Zamanla anladım səndə ürək yox,
Daha mənsiz yaşa bildiyin kimi.

Daha, birdəfəlik unut, sən məni,
Elə bilirdim ki, sən hər şeyimsən,
Dağların qarıtək bilmişdim səni,
Səndən aldım" məni" gördüm heç kimsən..

## XATİRƏNLƏ YAŞAYACAĞAM

Gözümü dünyaya yumana kimi,
Bu eşqi sinəmdə daşıyacağam.
Çəkərək həsrətin hər bir nazını,
Sənin xatirənlə yaşayacağam.

Zülmət gecə olsan, ulduz olacam,
Parlayıb köksündə işıq saçacam,
Xəyalda qəlbinə bir yol açacam,
Sənin xatirənlə yaşayacağam.

Üfiqtək nə qədər uzaq olsan da,
Fələk oyununda tuzaq olsan da,
Bu əhdə-ilqara yasaq olsan da,
Sənin xatirənlə yaşayacağam.

Bu, məhəbbət mənim ağrılı acım,
Bilmirəm özümdən hayana qaçım,
Unuda bilmirəm, yoxdur əlacım,
Qəlbimdə bir nisgil daşıyacağam,
Sənin xatirənlə yaşayacağam.

## ANA

Dağ boyda olsa da dərdin, kədərin,
Hıçqırıq çəkərsən ana qoynunda.
Axsa gözyaşların, qəhər boğunca,
Təskinlik taparsan ana qoynunda.

Lap ana olsan da, ana yanında,
Özünü yenə də uşaq sanarsan.
Canlanar gözündə xatirələrin,
"Kaş ki"lər içində odsuz yanarsan.

Anadır pənahın, dərdin olanda,
Yarana məlhəmdir onun nəfəsi.
Verdiyi öyüdlə hüzur taparsan,
Qaynayar içində yaşam həvəsi.

Alışıb yananda dərdlər içində,
Dərdinə biganə o qala bilməz.
Anadır dünyadan səni çox sevən.
Bir kimsə o yeri doldura bilməz.

Sipər edər qanadını dərdlərə,
Könül sarayının dirəyi Ana.
Gözlərin nurudur, qəlblərin tacı,
Ömrün həm bəzəyi, gərəyi Ana.

## OĞLUMUN İŞİ ÇOX

Bir gün  zəng elədi ata oğluna;
- Söylədi: “Xəstəyəm, durub gəlsənə”
- “Yox ata, qayğılar yaman çoxalıb,
dünəndən işlərim yarımçıq qalıb.
De görüm istəyin nə idi yenə?
İşimdən ayırdın, nə deyim sənə”

- “Bağışla ay oğul, işindən oldun,
Gələcəm demişdin, bəs, harda qaldın?
Həsrətəm boyuna, kövrək səsinə,
Həsrətəm qoxuyan gül nəfəsinə”.

Telefon düşəcəkdi sanki əlindən,
Yer-göy oynayacaq sanki yerindən!
Qulaq batıracaq cingiltili səs...
- “Ay ataa!!!
Əl çək, qoy, görüm işimi,
Bilmirəm neynirsən sən gəlişimi.
İşim çox olduğun sən ki, bilirsən,
Buna baxmayaraq, israr edirsən”.

Telefon bağlandı üzünə onun,
Oğul eşitmədi sözünün sonun...

İllər uçub getdi göz qırpımında,
Bir gün oğul saldı atanı yada.
Gecəni durmadı, yola düzəldi,

Səhəri atanın evinə gəldi.
Qapıda bir paslı qıfıl asılmış,
Açarı eləcə üstündə qalmış.

Diksindi qonşunun qəfil səsinə,
"Atan artıq yoxdur" bu kəlməsinə.
Dondu heykəl kimi nitqi tutuldu,
Durdu, handan-hana çöküb oturdu.

- "Bəs niyə bir xəbər verməmisiz siz,
Onu dəfn etmisiz məndən xəbərsiz?"
"Zəng etmək istədik izn vermədi,
Sonra yaşamasi uzun sürmədi.
Oğlumun işi çox son sözü oldu,
Mənə ayıracaq zamanı yoxdu".



## SEVGİM

Demədim göylərdən ulduz dər mənə,
Dedim ki, gecəmin Ay-Ulduzu ol!
Demədim qəlbində əzizlə məni,
Dedim ki, qəlbimin dadı-duzu ol!

Məndən qaçma dedim ey əziz “Oğru”,
Səndən ki, heç zaman qaçmamışam mən.
Hələ də qəlbimin qapısı bağlı,
Onu heç kimsəyə açmamışam mən.

Sevgin ürəyimdə sağ-salamatdır,
Qəlbimdə ölmənə vermədim imkan.
Ağrısı mənimdir bu acı eşqin,
Doğmadan doğmadır, özün yad ikən.

Məsumca sevildin, sönməz bir eşqlə,
Heç vaxt dönməyəcəm inan bu yoldan.
Körpəsin qoruyan bir ana kimi,
Onu qoruyacam hər bir bəladan!

## YORULMUŞAM

Yaxşı ki, həmdəmim şeirlərimdi
Vərəqlə-qələmlə sirdaş olmuşam.
Ürəyim titrəyir, qələmim kimi,
Məğrur dayanmaqdan çox yorulmuşam...

Hönkürür köksümdə yorğun ümidim,
Nə dərdim sağalar, nə də ki, yaram.
Deyirsən könülsüz sevmişəm səni,
Onda mən özümü bağışlamaram....

Fikirlər içində dərd doğur, neynim?
Bilməzdim hər sevinc qəmə dönəcək.
Eşqin alovunu məşəl bilmişəm,
Nə bilim o alov közə dönəcək...

Mən səcdə edərkən məhəbbətimə,
Sən onu içindən didib, oyurdun.
Göydə ulduzlardan yuva qururdum,
Sən onu dağıdıb, viran qoyurdun.

Qəlbimdə dəfn etdim duyğularımı,
Qəlbim duyğuların tək qucağıdır.
Daha unutmuşam gözəl çağları,
Deyəsən ömrümün qürub çağıdır.

Qalmayıb nə gücüm, nə də taqətim,
Bir küncdə dərdimə tən sarılmışam.
Usanan gözlərim yol çəkmir daha,
Daha bu sevgidən mən yorulmuşam.

## AXAN SEVGİMİZ

Bir vaxt üfüqlərdən şəfəqtək çaxıb,
Dağlar arasından doğan sevgimiz.
Zülmət gecələrdə göz qamaşdırıb,
Bir anda ulduztək axan sevgimiz.

Çatılıb bu eşqin indi qaşları,
Sükut qılıncıdır buz baxışları,
Süzülür kirpikdən qəm yağışları,
Qəhəri boğazda boğan sevgimiz.

Zəif ürəyimə çöküb sanki dağ,
Daha geri dönməz o, alovlu çağ,
Sanırdım heç zaman sönməz bu, ocaq,
Fəqət, külə döndü yanan sevgimiz.



## İLAHİ DUYĞU

Sevgimi duyuram əlimdə qələm,
Ürək döyüntümdə, qan damarımda.
Bağlıyam sevgimə öz canım qədər,
O mənim yazdığım misralarımda.

Ürək, ürək deyil, sevgisiz olsa,
Duyğusuz ürəyin həyatı acı.
Axı, kim istəməz, sevib-sevilsin,
Sevgidir ürəyin təkcə əlacı.

Günəştək müqəddəs, ucalan sevgi
Soyuq sinələrə əsla girəmməz
Hər şey dadsız olar, sevgi olmasa,
Sevginin dadını heç nə verəmməz.

Məndən soruşsalar, sevgi nə demək,
Mən cavab verərdim hər birinizə: -
Sevgi səadətdir - qoruyun onu,
İlahi duyğudur, verilib bizə...

## ÖPÜŞSÜN GÖZLƏRİMİZ

Qəlbimin istisi isitsin səni,
Əllərin əlimdə olmasa belə,
İstərəm toxunsun kipriklərimiz,
Öpüşsün gözümüz, bir baxış ilə...

Sevdamız dilimdə olub zümzümə,
Görüb şıltağlığı uşaqdır, demə
Fələk, insaf eylə, dəymə qələmə,
Yazılsın yazımız qoy naxış ilə...
Öpüşsün gözümüz, bir baxış ilə...

Təbiət həmdəmim olub hər zaman,
Dərdimiz buluda bənzəyir  yaman.
Mən deyil, ürəkdir eşq, sevda uman,
Döyüm pəncərəni bir yağış ilə...
Öpüşsün gözümüz, bir baxış ilə...



## ÖLƏN SEVGİMİZ

Yarpaqtək ayrıldı budaqlarından,
Göz yaşı süzüldü yanaqlarından.
Əbədi gülüşü dodaqlarından,
Silən sevgimizə yazığım gəlir,
Ölən sevgimizə yazığım gəlir.

Həyatı məhv oldu eşq xatasına,
Ürəklər alışdı, ah, sədasına.
Vüsaldan ayrılıb hicran yasına,
Gələn sevgimizə yazığım gəlir,
Ölən sevgimizə yazığım gəlir.

Qönçəydi, açmamış tez solduğunu,
Gözlər bulud kimi hey dolduğunu,
Ayrılıq odunun nə olduğunu,
Bilən sevgimizə yazığım gəlir,
Ölən sevgimizə yazığım gəlir.

## SEVGİ DƏ BİR NAĞILDI

Bilirsən ki, səni mən,
Daha sevə bilmərəm,
Nə olsun ki, arzumun
gözündə dolaşırsan,
Ümidimin önündə
seltək aşıb, daşırsan.
Xatirəm bəlkə səni,
hər an yad edəcəkdi.
Bəlkə də gözlərimdə,
xəyalın bitəcəkdi.
Ürəyim inad edir,
İpə-sapa yatmayır,
Köksümdə elə vurur,
kimsəni oyatmayır.
Kövrəldikcə göz yaşım,
Sərt bir payız yağışı,
yuyur arzularımın,
çiçəyini, gülünü,
Kaş öyrənə biləydin,
ürəyimin dilini.
Odu varsa, külü var,
bu, ürəyin dili var,
görən kimin əli var?
...Göydən üç alma düşdü,
Biri vardı, biri yox,
biri payıma düşdü,
Fikirlərim dağıldı,
sevgi də bir nağıldı!..

## SÖZSÜZ NƏĞMƏM

Mənim bir nəğməm var sözləri yoxdur,
O sözsüz nəğmənin bəstəkarı mən.
O həzin musiqi, o sözsüz nəğmə
Süzülür qəlbimin dərinliyindən.

Hələ ki, duyan yox sözsüz nəğməmi,
Məni anlamayan deyər-dəlidi.
Bir pərdə üstündə dinər ürəyim,
Belə nəğmə olar?...Çox gülməlidir.

Kaman bu nəğməmi telindən tökər,
Zildə fəryad edə, bəmi ağlayar,
Mizrab qeyzə gələr, simləri sökər,
Qırılan simlərin qəmi ağlayar.

O sözsüz nəğməmə söz yazammadım,
Çünki, o nəğməmə acizdi söz də.
Bu qəmli, nisgilli eşq nəğməsinin,
Səsi könüldədi sözləri gözdə.

## ÖZLƏR OLMUŞAM

Geyinib əynimə sənsizliyimi,
Dörd yol ayrıcında gözlər olmuşam.
Hər sənsiz günümdə gəzib özümü,
Kölgəmi sən bilib izlər olmuşam.

Ayrılıq odunda yandığım gündən,
Günləri, ayları saydığım gündən,
Həsrət yaraların oyduğum gündən,
Fəryadı içimdə gizlər olmuşam.

Ruhumu ağlatdın hicranınla sən,
Eşqimin saçına qar düşdü dən-dən,
Çöküb  yollarıma ayaz, çiskin, çən,
Dumanlar içində sızlar olmuşam.

Sənsiz dəyişmişəm olmuşam zəhər,
Həyata baxışım olub birtəhər,
Sənsiz açılmadı günəşli səhər,
Sadəcə mən “Bizi” özlər olmuşam.

## MADAM Kİ...

Madam ki, deməyə yox daha sözün,
Yolun açıq olsun, gedə bilərsən.
Gözümə baxmağa yoxdursa gözün,
Qəlbindən adımı silə bilərsən.

Madam ki, gedirdin, niyə gəldin ki...
Gəldin həyatımı alt-üst etməyə?
Ömrümə girəndə izin aldın ki,
İcazə istədin indi getməyə?

Madam ki, yalandı eşqin, ilqarın,
O zaman özünlə apar onları.
Heç nəyin qalmasın, götür özünlə,
Xoşbəxtlik deyilən gözəl anları.

Unutma, al apar xatirələri,
Səndən sonra məni bizləməsinlər.
Xəyalın kölgənlə əlbir olaraq,
Gəlib tavanımdan izləməsinlər.

Madam ki, gedirsən, özünlə apar,
Qoparıb tökdüyün ümidlərimi.
Elə dolmuşam ki, buludam sanki,
Tez ol get, qazanma sən nifrətimi...

## MƏNİ GÖRÜŞƏ ÇAĞIR

Məni görüşə çağır qara bulud dolanda,
Görünməsin gözlərim, bir az yağım yağışla.
Ürəyimin yarası səssiz qanayacaqdır,
Məni anlayacaqsan inan ki, bir baxışla.

Məni görüşə çağır payız fəsli olanda,
Son dəfə gəlib yenə şeir söyləyim sənə.
Şeirlə alıb səni aparacam göylərə,
Yenə də əvvəlkitək "gülüm" deyərsən mənə.

Məni görüşə çağır, gəlim xəzan çağımda,
Geyim sarı libası seçilməsin canım da.
Məni görüşə çağır ay-ulduzlu gecədə,
Qoy dolaşsın xatirən, damarımda, qanımda.

## NAKAM ÇƏRÇİVƏ

Çaldı həyatımı gedərkən məndən,
Namərd kül üfürdü eşqin gözünə.
İz qalmasın deyə o çərçivədən,
Rəsmini çıxarıb verdim özünə.

Ancaq çərçivəni ata bilmirəm,
Sanki içi onun cisminlə dolu.
Hamının gördüyü o boş çərçivə,
Mənim gözlərimdə rəsminlə dolu.

Hər gecə baxıram o çərçivəyə,
Gözümdə canlanıb, nəfəs alır o.
Boşaldıb qəlbimi çıxıb gedirəm,
Dönüb baxıram ki, mənə baxır o.

Ondan mənə qalan o boş çərçivə,
Sönən eşqimizin alışan közü.
Bir zaman rəsminlə dolu çərçivə,
İndi yaşatmayır bu eşqimizi.

Bilməzdim ki, ondan yadigar qalan,
O quru çərçivə canlı olacaq.
Bu boş çərçivədə bir ömür boyu,
Nakam eşqimizin izi qalacaq.

## APARMA

Sən gedirsən, gözlərindən asılı,
O, işıqlı gündüzümü aparma.
Əllərimin yaddaşına yazılı,
Əllərinin istisini aparma.

Yarpaqlamaz sənsiz sevgi puçurum,
İnsafdırmı puçur ikən puç olum?
Açar mənə qollarını uçurum,
Yollarımın ütüsünü aparma.

Küsməyinə inanmıram, dön, barış,
Aramızda yol qalmışdı bir qarış,
Ürəyimin alovuna gəl qarış,
Taleyimin tüstüsünü aparma....

## ÖZÜM ÇƏKƏCƏM

Hər dəfə əlimə qələm alanda,
Ağlıma  bir rəsm gəlir o anda,
Qəlbimin nəğməsi coşub daşanda,
Xoşbəxtlik rəsmini özüm çəkəcəm.

Xoşbəxtlik sözünə alışanların,
Rəqabət aparıb yarışanların,
Bu, sirri açmağa çalışanların,
Xoşbəxtlik rəsmini özüm çəkəcəm.

Buludun ardından Günəş doğanda,
Sevinclə təbəssüm qəmi boğanda,
Kipriyim ucundan yağış yağanda,
Xoşbəxtlik rəsmidir, özüm çəkəcəm.

Ruhumu oxşayan quşların səsi
Saçımı oxşayan bir “can” kəlməsi,
Səhər oyananda yanaq busəsi-
Xoşbəxtlik rəsmidir, özüm çəkəcəm.

Xoşbəxtlik deyildir nə şöhrət, nə şan,
Xoşbəxtlik şevgidir; ürəkdir məkan,
Xoşbəxtlik insanın içində hər an,
Xoşbəxtlik rəsmini özüm çəkəcəm.

## ÖMÜR KİTABIM

Gündəlik yazmışam ömür yolumdan,
Hərdən vərəqlərə nəzər salıram.
Hər vərəq xatirə, hər vərəq yaddaş,
Hər vərəq sonunda donub qalıram.

İlk vərəq ömrümün gənclik çağından,
Bircə vərəqini boş saxlamışam.
Olmayan bir şeydən nə yazım axı?
Gözümdən bir damla yaş saxlamışam.

Ömür kitabımın hər vərəqində,
Sevinclə kədəri qoşa yazmışam.
İçimdə boğulub qalan kəlmələr
Onu suya deyib, daşa yazmışam

Beləcə ağacdan düşən yarpaqtək,
Hər vərəq bir yarpaq olub, saralmış.
Asılıb qalmışam xatirələrdən,
Xatirə qəlbimdə əcəb yer almış.

## GÖZLƏR YAŞ OLUB

İnsanlar dəyişir fəsillər kimi,
Dünən bahar olan bu gün qış olub.
Gah leysan, gah boran, gah tufan kimi,
Gah da göydə pərvaz edən quş olub.
Xəyallar qırılıb, ürək daş olub.

Nə qədər qəribə həyatımız var,
Səni sevənin var, sevməyənin var,
Bu fani dünyaya yoxdur etibar,
İnsan şeytan ilə həmsirdaş olub,
Xəyallar qırılıb, ürək daş olub.

Ümidi, xəyalı qıran nə qədər,
Qırılan ürəklər çəkib dərd-kədər,
Bu fani dünyada nələr var, nələr?
Yaşımız üstünə gələn yaş olub,
Xəyallar qırılıb, ürək daş olub.

Gözəllik içində çirkin görənlər,
Gülü dərib getmiş könül dərənlər,
Ayaqlar altına qürur sərənlər;
İnsanlıq yox olub, dünya boşalıb,
Xəyallar qırılıb, ürək daş olub.

## ƏLVİDA DEMƏYİM GƏLİR

Gözlərim sözümə baxmayır yenə,
Buludtək doludur, yalandan gülür.
Qəm, qüssə asılıb kipriklərimdən,
Dünyaya əlvida deməyim gəlir.

Həsrətin, hicranın qapımı kəsdi,
Ürəkdə payızın küləyi əsdi,
Dünyada qalmağım bəlkə əbəsdi,
Dünyaya əlvida deməyim gəlir.

Ovqatım sevincə qovuşa bilmir,
Yazılan yazıya yovuşa bilmir,
Bu sevdam qəlbimdən sovuşa bilmir,
Dünyaya əlvida deməyim gəlir.
Dünyaya əlvida deməyim gəlir.



## AYRILIQ

Ayrılıq qəlbimə səpilib dən-dən,
Fəsillər ötsə də keçməyir zaman.
İnsafsız sevgimə, əsir düşəndən,
Yaman darıxıram, səninçün, yaman.

Acımı gülüşdə gizlətdikcə mən,
Gözümdən qəlbimə sızır damlalar.
Qələmin vərəqə yazmadığını,
Qəlbimə ürəklə yazır damlalar.

Anasız-atasız yetimlər kimi,
İntizar gözlərim yola dikilib.
Bilmirəm qəlbində nə qədər varam -
Mənimsə ruh evim uçub, tökülüb.

Qəlbim ağa ikən, qul olub indi,
Səssizcə itaət edir sevgimə.
Elə bil quruyur sinəmdə ürək,
Nəfəsim olginən çəkim sinəmə.

## EŞİT ÜRƏYİMİN DÖYÜNTÜSÜNÜ

Könlümdə açılıb yaz çiçəkləri,
Nərgiz, bənövşələr, lalə, yasəmən.
Gözlərim bələdçi, ürəyim elçi,
Gəlmişəm sevgiylə hüzuruna mən.

Ürəyin köksümdə durur əmanət,
Bəslədim mən onu məhəbbətimlə.
Qoruyub, saxladım o əmanəti,
Bu, pak niyyətimlə, sədaqətimlə.

Elə bilmə,  sənsiz yalnız yaşadım,
İnan biz çox idik, sandığından çox.
Xəyallar anılardı xatirə kimi -
Onlardan savayı başqa kimsəm yox.

Arzular ümmantək aşıb, daşanda,
Dənizdə, dalğaıda coşub çağlayır.
Ləpələr üstündə ümid azanda,
Uşaqtək dodağın büzüb ağlayır.

Daha şeirlərim dil aça bilmir,
Gizlədir sevgimin hər kəlməsini.
Qoy sənə sevgimi gözlərim desin,
Eşit ürəymin döyüntüsünü.

## GÖRƏSƏN SƏNDƏMİ BELƏSƏN MƏNƏ

Doymadım bu eşqin sirin dadından,
Çıxmadın heç zaman mənim yadımdan.
Qaçmaram alışıb yansam odundan,
Görəsən, səndəmi beləsən mənə?!

Ox çıxar bir kərə, qopar yayından,
Şikarı ürküdər hay-harayından.
Sənə yer ayırdım eşq sarayımdan,
Görəsən, səndəmi beləsən mənə?!

Şəfəq açılandan düşürsən yada,
Günəştək saçırsan şər qarışanda,
Verərəm ömrümü yolunda bada,
Görəsən, səndəmi beləsən mənə?!



## ÜRƏYİM XƏYANƏT ETMƏYƏCƏK

Sevgini yaşadan ürəyim olub,
Sən də yaşamaqçün qəlbimə girdin.
Orda bahar idi, orda yaz idi,
Sən onu döndərib, qışa çevirdin.

De, necə deyim ki sevirəm səni?
Bu sevgi toxumu cücərməz bir də...
Mən sənə ilk dəfə sevirəm dedim,
Dilim lal olaydı dediyim yerdə...

Get, dəyiş yolunu, öz yolunla get,
Daha haqqın da yox məni sevməyə.
Buz qatı yığılıb qəlbimə lay-lay,
Bu sevgi yolunda dəyməz ölməyə.

Solar çiçəklər də, quruyar bir gün,
Olsa da bu eşqin ömrü çiçəktək.
Ürəyim xəyanət etməyəcəkdir...
Fələk varlığımı məhv edənədək ...

## AĞLAYAN XATİRƏLƏR

Qəlbim göylər kimi aydın olsa da,
Gecələr buludtək qaralmağım var.
Hər bahar qəlbimdə güllər açsa da,
Payızda solmağım, saralmağım var.

Dağların qarıtək soyuyub sinəm,
Donmuşam, bir daha çətin isinəm.
Elə bil şimşək də, yağış da mənəm,
Çayların suyutək durulmağım var.

Həyatım küləyə, yelə bənzəyir,
Dağlardan kükrəyən selə bənzəyir,
Yanağı çatlamış gülə bənzəyir,
Taleyə-qədərə qırılmağım var.

Eşqim uca idi, hər şeydən uca,
Sevgimi qorudum ömür boyunca,
Sarıla bilmədim ona doyunca -
Təkcə xatirəyə sarılmağım var.

Bilmirəm həyatda yoxam, ya varam,
Baxdıqca geriyə sızlayır yaram.
Qəlbimi heç bir vaxt bağışlamaram -
Ən çox da özümə darılmağım var.

## BİZ BİZƏ GƏLƏK

Bəs deyil bu qədər ayrılıq həsrət,
Bəlkə biz yenidən üz-üzə gələk?
O keçən günlərə qayıdaq yenə,
O şirin anlarla göz-gözə gələk.

Taleh sınağına çəkibdir belə,
Hayqırır ürəyim gəlibdir dilə,
Sönməyib bu ocaq, közərir hələ -
Ümid var yeniden köz-közə gələk.

Məzəmmət eyləyək öz-özümüzü,
Danlayaq, anlayaq bir-birimizi.
Qoruyub-saxlayaq bu eşqimizi,
Bir olaq, birləşək biz-bizə gələk.



## ANA

Varlığın güc verir ana qəlbimə,
Ən böyük, vəfalı sevgi də sənsən.
Ürəyin ümmandır, coşqun bir ümman,
Sevgi, məhəbbət də elə özünsən.

Dünyada nə qədər pir var, ocaq var,
Ən böyük sərdabə, ocaqsan ana.
Büzüşüb soyuqdan üşüdüyüm an,
Günəş hərarətli qucaqsan ana.

Ay ellər, şəkərdi, ana kəlməsi,
Hər acı-ağrıya "ana" səslərik,
Hər dərdə məlhəmdi, dərmandı ana,
Körpə uşaq kimi onu gözlərik.

Ən gözəl sevgimdi, ən gözəl şeirim,
Ana sevgisinin qiyməti olmaz,
Hər dara düşəndə o pənah yerim,
Anasız dünyanın qüdrəti olmaz!

## GÖZƏLLİYİN GÜNAHI

Ey hakim, baxsana şikayətimə,
Mərhəmət qorxudan düşüb təşvişə.
Qatilim öldürüb duyğularımı,
De, hansı cəzalar düşür bu işə?!

Xəyala, qurura xəyanət edib,
Qırıb, parçalayıb sevən ürəyi.
Ümidə elə bir sillə vurub ki,
Bunun bir izaha varmı gərəyi?

Hər bayram göz yaşı hədiyyə edib,
Bir qatil üzündən gəncliyim solub.
Soruşsan bəs nədir sənin günahın,
Bəlkə, gözelliyim günahım olub?



## ŞEİR EŞQİM

Qorxum yox, öləm qalam,
Bilirəm yoxdan varam.
Ancaq ilham pərimi,
İtirməkdən qorxuram.
Yoxsa onsuz yoxam mən,
Fəqət könlü toxam mən.
Arzum, istəyim budur,
Könüllərə axam mən.
Qar altından boylanan
Bənövşəyə bənzərəm
Hər şeirim bir ağacdır
Sıx meşəyə bənzərəm

Bar verənləri də var,
Verməyənləri lap çox
Amma hamısı mənim
Mənim acım-şirinim
Mənim sözüm-söhbətim
Bəzən qəmim-kədərim
Yuxusuz gecələrim...
Onlar düşüncələrim...

## QƏRİBƏ HƏYAT

Bu gün bir kənardan izlədim "məni",
Yenə xəyallara dalıb, qalmışam.
Yenə də sükutum olub həmdəmim,
Yenə də meylimi qəmə salmışam.

Bu bahar Günəş də bir qəribədir,
Uşaqtək yerində dayana bilmir.
Yatır, mürgü vurur, sanki təbiət,
Nədənsə yuxudan oyana bilmir.

Heç nə ürəyimi isidə bilməz,
Yox olub qəlbimin baharı-yazı.
Günəştək parlayan bu gözlərimi,
O, oğrun baxışın yandırır, düzü.

Yalançı xəyallar aldatdı məni,
Daha xəyallara küsən biriyəm.
Mənim bu ömrümdən baharım gedib,
Yarpaqtək budaqda əsən biriyəm.

## YORĞUN ÜRƏYİMİN YUXUSU GƏLİR

Səyahət edirəm bəzən qəlbimə,
Ağacı qırılmış bağlar görürəm.
Uzaqdan qəlbimə nəzər salanda,
Kədərdən ucalan dağlar görürəm.

Bəzən oralara yaz erkən gəlir,
Açır addımbaşı tər bənövşələr,
Mənim gözlərimdə bulaq qaynayır,
Dağlar göz yaşımdan xəbərsizdilər.

Sahilsiz dəniz var sinəmdə sanki,
Dəryadan dərindir o dəniz məndə.
Məni əzizləyir, məni oxşayır,
Sanki laylay çalır ləpələrində.

Bütün ürkəklərə hərarət verən
Sevgi-məhəbbətdir, “sözdür” bəlkə də,
Söz də var qəlbinin möhnəti olar,
Bütün sevincini qoyar kölgədə...

Ömrün unudulmaz anları vardı,
Unuda bilməzsən keçsə də zaman.
Necə qəribədir həyat, İlahi...
Ağrı-acıya da alışır insan...

Həsrət adasında qalan sevgimin,
Şirin xatirədən qoxusu gəlir...
Öz eşqim, öz əqlim çox yorub məni,
Yorğun ürəyimin yuxusu gəlir...

## XƏYALIM QALDI

Gözlərim doludur, çatılıbdı qaş,
Dolaşıb yumaqtək kipriyimdə yaş.
Ağlaya bilmirəm, qəlbim daşdı-daş,
Nə bir xoşbəxt anım, nə də gümanım,
Nə bir qurulacaq xəyalım qaldı.

Elə düyünlənib sözlər içimdə,
Yüzlərlə üz gördüm üzlər içində,
İsitdim qəlbimi buzlar içində,
Nə bir şirin arzum, nə bir amalım -
Nə bir qurulacaq xəyalım qaldı.

Saxta gülüşümdən gözüm utandı,
Sarsılan qəlbimdən, ruhum usandı,
İnləyən ürəkdir, dilim susandı,
Nə bir səadətim, nə də bir halım,
Nə bir qurulacaq xəyalım qaldı.

## BU BAHAR

Qəlbimdə bu bahar açmadı güllər,
Avazı kəsildi şux bülbüllərin,
Qəmləndi buludlar, yağdı yağışlar,
Bu bahar qəlbimin payız fəslidir.

Qəlbimə nur çilə, dedim Günəşə,
Günəşdən azacıq hərarət düşə,
Sandım ki, qəlbimdən payız ötüşə,
Bu bahar qəlbimin payız fəslidir.

Bahar gözəllikdir, dönüb gülzara,
Ürəksə xəzandır həsrət bahara,
Qəlbimin hər fəsli çəkilib dara,
Bu bahar qəlbimin payız fəslidir.

Nə sevgim, nə qəlbim gülmədi bir dəm.
İstədim mən sənə bir söz söyləyəm,
Bahar bəhanəydi, həsrətindəyəm,
Bu bahar qəlbimin payız fəslidir...
Bu bahar sevgimin payız fəslidir...

## QAÇMAQ İSTƏYİRƏM

Bəzən ətrafımda hər şey qaralır,
O zaman bilmirəm gedim mən hara.
O anda qəlbimdən bir istək keçir,
Qaçmaq istəyirəm çox uzaqlara.

Elə bir yerə ki, orda ümidin,
Qoynunda bir bağı, bir gölü ola,
Gölün qırağında kiçik bir koma,
Qapısı, bacası lap uçuq ola.

Qaçmaq istəyirəm o yerlərə ki,
Orda gəncliyimi qoyub gəlmişəm.
Ömür təngənəfəs yanımdan keçib,
Mən onun səsini hiss etməmişəm.

İçimdə hay-haray salan kəlmələr,
Qəlbimin içində açıblar yara.
Ardımca “getmə, qal” deyənim də yox,
Qaçmaq istəyirəm çox uzaqlara.

## VƏTƏN SEVGİSİ

Qəriblik yazılıb bəxtimə Allah,
Qürbət torpaqlara mən kök salmışam.
Qüruba yan alan bir Günəş kimi,
Elə dan yerində sönüb qalmışam.

Elimdən, obamdan uzağam, uzaq,
Yerdən göyə olan məsafə qədər.
Elə kövrəlirəm, elə doluram,
Gözümün önündə bitib qəm, kədər.

Vətəndən uzaqda səadət olmaz,
Qürbətdə gen dünya mənə dar gəlir.
Günəş də başqa cür doğur Vətəndə,
Qışı da gün doğur, yaz, bahar gəlir.

Vətən evimizdir, Vətən yuvamız,
Vətəni qorumaq öz haqqımızdır.
Əmanət qoyublar babalarımız,
Vətən ürəyimiz, Vətən qanımız.

Qanla yazılıbdır dastanlarımız,
Dədə Qorqud kimi dədəmiz olub,
Babək, Cavanşir tək qəhrəmanımız,
Bu torpaq gör necə igidlər doğub.

“Qarabağ” sızlayan qanlı yaramız,
Onsuz rahatlıq yox bizə cahanda,
Düşmən tapdağında qalan torpağım,
Azad olmalıdır tez bir zamanda.

Şəhidlər qanıyla dolan Vətənim,
Sənin torpağına, daşına qurban,
Uğruna canından keçen şəhidim,
Göylərə ucalan başına qurban.

Sən ey müqəddəs yurd, müqəddəs Vətən!
Qüdrətim, sərvətim, varlığım, canım
Qoynunda uyuyum bir balan kimi,
Mənə bir lay-lay çal , Azərbaycanım!!!

## DÜNYANIN ƏN GÖZƏL SÖZÜDÜR ANA

Dünya yaranandan bütün ellərdə,
Dünyanın ən özəl sözüdür Ana.
Bütün millətlərdə, bütün dillərdə,
Dillərin əzbəri, sözü-söhbəti,
Ən gözəl kəlməsi-sözüdür Ana.

İlk söz əlifbada Ana sözüdür,
Mələktək gözəl üz Ana üzüdür.
Hüzurlu yastığın Ana dizidir,
Evinin ruzisi, nazı-neməti,
Cənnət yollarının izidir Ana.

İllərin əzabı qırış üzündə,
Ülviyyət, mərhəmət Ana gözündə.
Nə böyük hikmət var Ana sözündə.
Hər yaşda qəlbinin varı- dövləti,
Tükənməz sərvətin özüdür Ana.
Dünyanın ən gözəl sözüdür - ANA.!

## SƏSSİZLİK

Yenə səssizliklə qaldım başbaşa,
Dinlədim sükutun təntənəsini.
Bəzən səssizlikdə insan çox duyar,
Özünü, ruhunu, qəlbin səsini.

Səssizlik susubdur sənsizliyimdə,
Səni səsləyirəm lal harayımda.
Üzünə səpirəm ləpələrimi,
Duran dənizimlə, axan çayımla.

Səssizlik içində sənsiz olsam da,
İçimdə fırtına fəryad eyləyir.
Ayrılıq dərdinə məruz qalsam da,
Sevgi nəğməsini səssiz söyləyir.

Səssizcə yaşadım mən sənsizliyi,
Həsrətdən ayrılıb tək qalammadım.
Səbr də yorulub, taqətdən düşdü,
Mənsə sənsizlikdən ayrılammadım.

Yenə səssizliklə qaldım başbaşa,
Dinlədim səssizcə lal nəfəsini.
Nə qədər sükut var bu səssizlikdə.
Duydum səssizlikdə sənin səsini.

İstərəm mən, sənin ürəyin olum,
Köksündə hiss elə məni səssizcə.
Sən də mənim kimi mənsiz çox darıx,
Dinlə səssizlikdə məni gizlicə.

## İTİRDİN MƏNİ

Xəbərsiz, ətərsiz getdin insafsız,
Gör neçə zamandır səsin də gəlmir.
Bu gediş öldürdü məni, vəfasız,
Nələr çəkdiyimi kimsə də bilmir.

Nə imiş günahım söylə, nə oldu?
Cavabsız qoymusan suallarımı.
Səni çox gözlədim, bəlkə, gələsən,
Gəlmədin, görmədin bu hallarımı.

Gəlsən məzarıma əlində güllə,
O soyuq daşlardan səs çıxmayacaq.
Ruhum ağlayacaq, səni görüncə,
Ancaq gözlərimdən yaş axmayacaq.

Sonra deyecəksəm-bağışla, gülüm,
Yüz dəfə dirilib, öləcəm yenə.
Mən səni bax belə sevdim, əzizim,
Nə nifrət, nə kinim qalmamış sənə.

## BİZ AYRILSAQ MƏSLƏHƏTDİ

Yadındamı keçən günlər,
Vaxt tez ötdü anlamadıq.
Başımızı iş-güc qatdı,
Biz bəxtəvər olammadıq.
Vaxt da çatdı...
Burax gedim...

Sən ayrı yar, mən ayrı yar,
Bu eşq deyil, məşəqqətdi.
Zaman gedir, bizə nə var,
Biz ayrılsaq məsləhətdi.
Burax gedim...

Bu izdiham yordu məni,
Yer üzünü basıb adam.
Mən sevgidə fağır biri,
Mən arzusu kasıb adam.
Burax gedim...

Getsəm məni əziz saxla,
Qalsam ayrı dərd olacaq.
Bu getdiyim son qatarla,
Ölümdürsə son duracaq
Burax gedim.

## UNUDA BİLMƏYƏCƏKSƏN

Rəsmim xəyalında canlanacaqdır,
Hələ həsrətimi çox çəkəcəksən.
Qayğısız, firavan mənli günləri,
Heç zaman unuda bilməyəcəksən.

Mən qərib ölkədə bir tənha qadın,
Sən yad məmləkətdə baxımsız adam.
Bir gün içindəki qatı inadı,
Məsum baxışlarla sındıracağam.

Mənsiz tənhalığın üzündən bəlli,
Düşdü bəxtimizə ömrün çətini.
Əlini əlimdən üzüb gedəli,
İtirdin sevgini, səadətini.



## KİMSƏN AY ADAM

Bilmirəm kimsən ey, bəlalı adam,
Günlərdi könlümə qənim olmusan.
"Mən aşiq olmaram"- deyib durardım,
Sən deme ilk gündən mənim olmusan.

İlişib qalmışam xəyallarında,
Məni baxışınla tora salmısan.
Bəlkə də qəlbində başqa biri var,
Amma mənim üçün sən doğulubsan.

Zülmətə çevrilib eşqimin üzü,
Aylı günlərimə qənim olubsan.
Bəlkə də xəbərin yoxdu əzizim,
Özündən xəbərsiz mənim olubsan.

Söylə kimsən axı, belə doğmasan?
De hansı xəyala, fikrə dalıbsan?
Nə dostsan nə yarsan, nə də sevgili,
Amma ruhumdasan, mənim olubsan.

Bilmədim nə zaman girdin qəlbimə,
Yuxusuz gecəmə qənimsən, qənim.
Sən kimsən, nəçisən söylə ay adam?
Elə bil min ildi mənimsən, mənim.

## GÖZƏL SEV MƏNİ

Gərək sevəndə də gözəl sevəsən,
Hər sevən bilmir ki, sevgi nə demək.
Sevgi ülviyyətdir, sevgi cəsarət,
Allah! Nə gözəldir, sevib-sevilmək.

Sevmək istəyirsən ruhun ilə sev,
Saflığı könlünə dilə, sev məni.
Qoy sənə söyləyim necə sev məni-
Kərəmtək alış, yan, elə sev məni.!

Sev məni, göldəki sonalar kimi,
Çünki bir- birindən ayrılmır onlar.
Sev məni, dənizdə balıqlar kimi,
Çünki səssiz eşqdə firtınalar var.

Sev məni, sərçənin göz yaşlarıtək,
Bilirsən, sərçələr ağlasa ölər.
Sev məni, qurdların məhəbbəti tək,
Cəsarət Boz Qurda sevgidən gələr!

Gəl dərdləş mənimlə, aç ürəyini
Eşqin yollarında duraq bərabər.
Sevgimə diqqət et əvvəlki kimi,
Ömrü birgə başa vuraq bərabər.

Nəfəstək sev məni, dilucu deyil,
Bu eşqin bir anı getməsin hədər.
Sev məni, bağçada min bir həvəslə,
Bağbanın gülləri sevdiyi qədər.

Bilmirəm, çox şeymi istəyirəm mən,
Əgər səhvim varsa, keç günahımdan.
Bilirsən, kimdəndir bu eşq diləyim?
Əzizim, bir səndən, bir Allahımdan .

## GECƏ VƏ GÜNDÜZ

Həsrətin tökülür gecələrimdən,
Yorğun gözlərimdən yuxum əlenib,
Gözlərim dikilib zülmət gecəyə,
Gündüzdən gecəmə hicran çilənib.

Hər zaman sən mənim xəyalımdasan,
Gecə- gündüz şahid, etdikcə fəğan,
Yanır iztirabdan ürəyim hər an,
Gündüzüm bezibdir, gecəm dirənib.

Yarışa giribdir gündüzlə-gecə,
Bilmirlər qəmimi bölsünlər necə,
Bölə bilmədilər, oldu heç- heçə,
Gündüzüm yorulub, gecəm tükənib.

## GÖZLƏDİM YUXUMA QONAQ GƏLƏSƏN.

Çəkilib bir yana, qısılıb küncə,
Hicranın odunda yandım gizlicə,
Bircə arzu ilə yatdım bu gecə,
Gözlədim  yuxuma qonaq gələsən.

Gözlədim ümidlə, min bir diləklə,
Düşündüm gələrsən əsən küləklə,
Mən səni sevmişəm təmiz ürəklə,
Gözlədim  yuxuma qonaq gələsen.

Ürəyim həsrətə dözməyir daha,
Bu eşqin acısı bahadan, baha,
Gümanım qalıbdır uca Allaha,
Gözlədim yuxuma qonaq gələsən.

Kaş ki  qismətimdə qala biləydin,
Məni bu həsrətdən ala biləydin,
Barı, yuxulara gələ biləydin,
Gözlədim yuxuma qonaq gələsən.

Çarəsiz, əlacsız qaldıq ikimiz,
Kimsələr bilmədi nədir dərdimiz,
Qalsın qəlbimizdə böyük sevgimiz,
Gözlədim yuxuma qonaq gələsən.

Nakam eşqimizin kədər, qəmisən,
Nisgilli könlümün tək məlhəmisən,
Təkcə yuxularda sən həmdəmimsən,
Gözlədim  yuxuma qonaq gələsən.
Nə olar, yuxuma qonaq gələsən?

## SƏNSİZ HƏYAT ZİNDANDIR

Toxunmayın, yaram təzə, damla-damla axır qanım,
Dərdlərimlə tək qalmışam, gecə-gündüz yanır canım,
Sevginə əsir düşəni yoxa çıxıb adım-sanım,
Bu həsrətin yağışında islanmışam, daha gecdir-
Yaşamağın nə mənası, sənsiz həyat mənə heçdir.

Boğulsam da təkbaşına gecələrin beşiyində,
Çalışıram yaşamağa ümidlərin keşiyində,
Ürək məni dinləmədi qaldım onun eşiyində,
Gözləyimmi, unudummu, çarəsizəm daha gecdir-
Yaşamağın nə mənası, sənsiz həyat mənə heçdir.

Kaş gecənin dili ola, anlada bilə eşqimi,
Vəfasız olsan da gülüm, unutmadım bu sevgimi,
Uzun zaman keçsə belə yaralarım təzə kimi,
Nə sən gəlmə, nə mən gəlim, çox yanmışam daha gecdir-
Yaşamağın nə mənası, sənsiz həyat mənə heçdir.

## BİLMƏDİM

Ömrümün yolları çınqıllı, daşlı,
Ümidin, diləyin gözləri yaşlı,
İçim odla dolu, qəlbim savaşlı,
Xəyalım yıxıldı dözə bilmədim-
Səni mən heç zaman, çözə  bilmədim.

Satdın eşqimizi özgəsi üçün,
Vəfalı olmağa çatmadı gücün,
Ağladım gizlicə hey için- için,
Niyyətin nə idi, bilə bilmədim-
İstədim ki,  öləm-ölə bilmədim.

Kədər dəryasında günlərlə üzdüm,
Qəmin zindanında əzaba  dözdüm,
Dolandım hər yanı,  eşqimi gəzdim,
Yox olan sevgimi tapa bilmədim-
Qapıldım dünyama,  qopa bilmədim.

Sandım ürək dözməz  xəyanətinə,
Özüm də mat qaldım  dəyanətimə,
Büründüm, abrıma sədaqətimə,
Eşqin kitabını  aça bilmədim-
Mən öz saf sevgimdən  qaça bilmədim.

## DARIXMIŞAM

Unuda bilmədim ötən günləri,
Xatirən hər yerdə, mən heç yoxmuşam.
Bütün duyğuları sənə xərclədim,
Ötən günlər üçün çox darıxmışam.

Sorsalar səni bəs, öldümü deyim,
Axı, bu kəlmədən yaman qorxmuşam.
Hər gün pəncərəmdə sənsiz dolaşan,
Səssiz baxışınçün çox darıxmışam.

Aylı gecələrin işiğı səndin,
Hər ötən gecəmin ulduzu oldun.
Evimin dirəyi, başımın tacı,
Süfrəmin çörəyi, həm duzu oldun,

Ayrılıq ölümdür-gəldi başıma,
Həsrətdən usanıb çox yorulmuşam.
Unutmaq olarmı ürək sevəni,
Axı mən səninçün çox darıxmışam.

## BAĞIŞLA, DÖNƏ BİLMƏRƏM

Yadıma düşürsən, səni anıram,
Əlimi uzatsam çatar sanıram,
Səni sevdiyimi məcbur danıram,
Bağışla, mən sənə dönə bilmərəm.

Adını duamla başlasam belə,
Eşqini qəlbimdə daşısam belə,
Sənli günlərimlə yaşasam belə,
Bağışla, mən sənə dönə bilmərəm.

Sənsiz dünya mənə sanki qəfəsdi,
Quruca varlığın bil, mənə bəsdi,
Indi nə söyləsəm daha əbəsdir,
Bağışla, mən sənə dönə bilmərəm.

Yalnız xəyalımda təkcə mənimsən,
Amma həyatımda sən heç kimimsən,
Axı bilirəm ki, sən özgəninsən,
Bağışla, mən sənə dönə bilmərəm.

Yenə də xəyala, fikrə dalmışam,
Sən kibrit olmusan, mən şam olmuşam,
Sən olan dünyada sənsiz qalmışam,
Vüsalın yolu yox, dönə bilmərəm,
Bağışla, mən sənə dönə bilmərəm.

## SUSACAQ SEVƏN ÜRƏYİM

Səfərə çıxanda sevinc mənləydi,
İndi qəm-qüssəylə dolub səfərim.
Qovrulur ürəyim odlar içində,
Heç mənnən ayrılmır qəmim, kədərim.

Sevgini borc verib, sələm istədin,
Uğursuz biriyəm məhəbbətimdə.
Səni çox gözlədim bəlkə gələsən,
Sən nöqsan aradın sədaqətimdə.

İndi necə gülüm, necə sevinim?!
Sevinci gözümdən yudu göz yaşı.
İncitdin ruhumu, incitdin məni,
Mən səni seçmişdim könül sirdaşı.

Təki mən üzülüm, sən heç üzülmə,
Qırılib, tükənib daha diləyim.
Sevgim tükənərsə yaşamaram ki,
Onunla susacaq sevən ürəyim.

## ŞAİR OLMASAM DA, ŞAİR TƏBLİYƏM.

Sağ əlim qələmi buraxmır bir an,
Düzür misraları, yazır  yanbayan,
Ilhamım sevgidən, ürəkdir yazan,
Mən şair deyiləm, şair qəlbliyəm-
Şair olmasam da, şair təbliyəm.

Ruhumun, qəlbimin həmdəmi olan,
Səhər mehi kimi köksümə dolan,
Məni dərdlərimin əlindən alan,
Qəzəl misrasıyam, şeir sətriyəm-
Şair olmasam da, şair təbliyəm.

Hər kəsin dərdini  öz dərdi bilən,
Bir dərdli görəndə  dolub kövrələn,
Dərdini gizləyib cevincin bölən,
Çılğın sevdalıyam, zəngin dəbliyəm-
Şair olmasam da, şair təbliyəm.

Şeirdi ruhumun baharı, yazı,
Şeirdi könlümün dil açan sazı,
Şeirdi duyğumun çoşqun avazı,
Bütün yazarlardan daha fərqliyəm-
Mən şair deyiləm, şair təbliyəm.

## GÖZƏL DEYİLMİŞ

Uşaqkən, böyümək istədim hər gün,
Qəlbimdə min arzu, min dilək, ana.
Böyüdüm dərdim də böyüdü mənlə,
Heç gözəl deyilmiş böyümək ana.

Hər gün gözləyərdim doğum günümü,
Olmazdı kədərim, olmazdı dərdim.
Hopardı zehnimə o gözəl anlar,
Kiçik oyuncağı dünya bilərdim.

Kaş yenə oynayıb uşaq oynumu,
Eşqin atəşindən uzaq olaydım.
Qaçıb gizlənəydim qanlı fələkdən,
Dünyadan doyunca ləzzət alaydım.

Gülərüz qız idim, dərdsizdim, ana,
Bilməzdim xoşbəxtlik çox az sürəcək.
Vüsal dəryasında üzdüyüm zaman
Mən hardan biləydim hicran gələcək

Elə bilirdim ki, böyümək gözəl,
Bilməzdim nə imiş qəlb sarsıntısı.
Sanmışdım hər zaman seviləcəyəm,
Nə qədər ağırmış eşq sıxıntısı.

Uşaqkən yaralar tez sağalardı,
Yeməzdi içindən yara heç kəsi
Yaranın  bircəcik məlhəmi vardı
O da ana eşqi, ANA SEVGİSİ

Uşaqkən, böyümək istədim elə,
Qəlbimdə min arzu, min dilək, ana.
Böyüdm  dərdim  də böyüdü mənlə,
Heç gözəl deyilmiş böyümək ana.

## DAHA MƏNSİZ YAŞA

Bir Allah bilir ki, sevmişdim səni,
Hər kəsdən çox fərqli bilmişdim səni,
Səhrada bulaqtək gömüşdüm səni,
Sən demə, yalanmış kor məhəbbətin-
Daha mənsiz yaşa, bu da töhmətin.

Uçurub qəlbimi tarimar etdin,
Bu geniş dünyanı sıxıb dar etdin,
Bu eşqi ovxayıb, əzib xar etdin
Döndün qatilinə bir səadətin-
Daha mənsiz yaşa, bu da töhmətin.

Daha nə yazım ki, yoxdur arzu-kam,
Nə təbim qalıbdır, nə də ki ilham,
Iztirab içində qaldım pərişan,
Allah bağışlasın, mən isə çətin-
Daha mənsiz yaşa, bu da töhmətin.

## QARABAĞ BİZİMDİR

Gözün tox olubdur, Azərbaycanım,
Əzəldən kimsəylə olmayıb işin.
Qoynunda ilantək bəslədiklərin,
Sinənə batırdı zəhərli dişin.

Tarixlər yazıldı əsirlər boyu,
Düşmən həmən düşmən, soyu həmindir.
Erməni xisləti dəyişən deyil,
Həmin vəhşiliklər, oyun həmindir.

Gözləri həmişə Türk torpağında,
Arzusu onların gözündə qalsın.
Qarabağ bizimdir, bizim olacaq!
Allah şahidimiz, haqq zəfər çalsın!

## YANDIM ŞAM KİMİ

Bu eşqi əbədi bağlayacağam,
Sevirəm, sevmirəm bilməyəcəksən.
Mən səni siləcəm baxışlarımdan,
Sən mənə baxsan da görməyəcəksən.

Bilmirəm həyatdan nə vaxt köçəcəm,
Sualın cavabı ürəyimdədir.
Sorsalar xoşbəxtlik nədir?- susacam
Bu sirr axirətdə yenə mənlədir.

Dənizə atacam şəkillərini,
Dalğalar aparsın sonsuza kimi.
Pozacam səninlə bağlı hər şeyi,
Eşq ilə bağlı olan şeirlərimi.

Çəksəm də çəkdiyim qədər zikrini,
Zamanla bunları unudacağam.
Yorğun bir yolçuyam, sorma fikrimi,
Susmaqla qəlbini ovudacağam.

Bütün yollarımın əvvəli səndin,
Sərt bir rüzgar kimi əsdin ömrümdən.
Cənnət yaratsam da, cəhənnəm etdin,
Düyün bağlasam da, ipi kəsdin sən.

Əzəldən həyatın iki üzü var,
Sən mənə göstərdin, tək bir üzünü.
Məni qınamağa de, üzünmi var?
Kaş mənə desəydin sözün düzünü.

Yaşayan cismimdir, çoxdan ölmüşəm,
Ömrüm şama bənzər, yanıb sönmüşəm.
İçimdə yaşayan o qızcığazı
Bir az tez oyadıb, erkən gömmüşəm.

***

Bir canım var idi vermişəm sənə,
İndi ümidlərdən can içirəm mən.
Yox olub arzular, tükənib ömür,
Əcəl körpüsündən yol keçirəm mən.

## YENİDƏN SEVMƏK

Açılan səhərin Günəşi olub,
Can verib oyatdın  duyğularımı.
Şəfqətlə toxunub  titrək qəlbimə,
Hüzurla azaltdın qayğılarımı.

Üşüyən ümidi  ovcuna alıb,
İsidib yenidən  verdin özümə.
İnamla güvəni hədiyyə edib,
Sevgiylə naz çəkdin solan üzümə.

Dərdlərin əlindən alıb qəlbimi,
Bir sığal çəkərək eşqlə süslədin.
Əlimdən tutaraq baxıb gözümə,
Qəlbinə bir ömür  məni səslədin.

Demək ki, yenidən sevmək olarmış,
Şair doğru demiş bunu əzəldən.
Sevgini tərənnüm edən qələmim,
Yenidən yazacaq şeir, qəzəldən.

## BAXMA

Könlümün tək sevgisiydin, susuz gülə su vermişdin.
Damla suya möhtac qədər bax, səni elə sevmişdim.
İlk dəfə yalan dünyada özüm qədər güvənmişdim.
Qorxdun, sanki bu sevgimdən unudacam  səni, qorxma!
Ümüdlərimin oğrusu, xəyallardan daha baxma!

Kor işıq sevəntək sevdim, həqiqəti görəmmədim .
Kar oldum duyduqlarıma, gerçəkləri eşitmədim .
Lal oldum hər bir sözünə, susdum, susdum heç dinmədim...
Şikəst oldum eşq üzündən, çıx, qəlbimi daha yaxma!
Görmək istəmədin onda, daha gecdir indi baxma!

İllər sonra qarşılaşsaq, gözlərimə baxacaqsan...
Gözlərimdə eşq arayıb,  ümmanımda batacaqsan...
Buludumdan nəm çəkəndə yağış kimi yağacaqsan..
Ona görə unut məni, yollarıma əsla çıxma!
Görsən uzaqdan gəlirəm, mən tərəfə birdə baxma!

## SEVGİSİZ EVLİLİK

Vağzalı çalınır, Gəlin ağlayır,
Bir gəlin ağlayır sakit səssizcə.
Bu gün toy günündə, gözləri qəmli,
Bir gəlin ağlayır bu gün gizlicə.
Ürəyi doludur, gözləri nəmli.

Toy büsat qurulub, məclis çağlayır,
"Vağzalı çalınır, gəlin ağlayır."
Gəlinin belini qardaş bağlayır,
Sanki yarasını közlə dağlayır.

Haqsızlıq eləyib, ata qızına,
Onu dinləmədən oda atıbdır.
Böyük sevgisini gözündə qoyub,
Ona acımadan pula satıbdır.

Qonaqlar rəqs edir, məclis olub şad,
Gəlin kar-kor olub, heç nə duymayır.
Anası, atası sevinc içində,
Gəlin heykəl olub, məhəl qoymayır.

Gözündə damlalar, qəlbində yara,
Sakitcə ağlayır, o bəxti qara.
Özünü unudub, acıyır yara,
Bu qara sevdayla gedəcək gora.

Özündən razı Bəy, gəlini süzür,
Gəlin yad baxışdan əziyyət çəkir.
Küsüb taleyinə, gəlin üzülür,
Sevdalı qəlbində, nə xiffət çəkir.

Çarəsiz, əlacsız, səssiz-səmirsiz,
Ağlayır, son vida ağlından getmir.
Əlini qəlbinə qoyub hiss edir.
Qəlbinin  sahibi onu  tərk etmir.

Xəyallar götürür  son görüşünə,
Sevdiyi insanla, vida anına.
”Bu eşqi unudaq” dediyi sözlər,
Əbədi baisdir həyəcanına.

Məclisə aş gəldi, baxıb aşına,
Köksü dəniz kimi coşub-çağlayır.
Yıxıldı dünyası gəncin başına,
Vağzalı çalınır, gəlin ağlayır.

Axı sevgilisi ona demişdi,
Gəl gedək qoruyaq bu sevgimizi.
Əl versən  əğyarın çirkli əlinə,
Hicran ömrü boyu üzəcək bizi.

Daha nə sən mənsiz, nə də mən sənsiz,
Yaşaya bilmərik, bilirsən özün.
Gəl birgə son qoyaq bu müsibətə,
Bu saf eşqimizə de nədir sözün.

Son dəfə həsrətlə sarıldı ona,
Dedi ki, əzizim, danışma daha.
Son dəfə pıçılda sən qulağıma,
Vüsal yollarımda olaşma daha.

Aşiqlər  sarıldı biri-birinə,
Sevgi  fəryadından göylər ağladı.
Son görüş, son vida ömürlərinə,
Sağalmaz yaralar vurub dağladı.

Vağzalı çalındı elə bu dəmdə,
Gəlin ayıldı ki, məclis bitmişdir.
Bütün toyu gəlin  xatirələrdə,
Qəmli notlar ilə ona getmişdir.

Vağzalı çalınır gəlin ağlayır,
Daha gülməyəcək, bəlkə də, üzü.
Nə qədər acıdır bu  həyat bilsən,
Sevgisiz evlilik ölümdür düzü.

## SƏN MƏNİM SEVGİMƏ LAYİQ DEYİLSƏN

Heç kəsin, heç kimi etdin özünü,
Düşünmədən dedin, axır sözünü,
Niqabın altında örtdün üzünü,
Xəyalıma gəlmə, guya mənimsən-
Sən mənim sevgimə layiq deyilsən!..

Vəfadan uzaqmış eşqinin təbi,
Soyuq baxışlarla üşütdün qəlbi,
Qədrimi bilmədin daşırdın səbri,
Eşqimə, sevgimə əzəl qənimsən-
Sən mənim sevgimə layiq deyilsən!..

Keçsə də neçə il, dözdüm birtəhər,
Səni pəncərəmdə gördüm hər səhər.
Heç dönüb baxmadım boğsa da qəhər,
Apar xəyalını daha qəmimsən-
Sən mənim sevgimə layiq deyilsən.

## TÜRK ŞƏHƏRİDİR KƏRKÜK

Aslanlar yurdudu, türkün yurdudu,
Əlçatmaz zirvədir, düşmənə Kərkük.
Çaqqallar, dağılsın  qurd yuvasından,
Türkdən əmanətdi türkmənə Kərkük.

Nəğmələr qosulub, dastan yazılıb,
Təlafət, Kərkükə, Hələb, Mosula,
Bürünüb şəhidlər qanıyla bitən,
Laləyə, nərgizə, süsənə Kərkük.

Ulu babamızdan sən əmanətsən,
Namussan, şərəfsən, türkə qeyrətsən,
Qoruya bilməsək tər, xəcalətsən,
Bürünüb dumana, sis-çənə  Kərkük .

Təklikdən əzilir, inləyir Kərkük,
Qardaşın yolunu gözləyir Kərkük,
Düşmənlər tək görüb, təkləyir Kərkük,
Bağlıyıq cana biz, bədənə  Kərkük.

Məğrurluq yazılıb türkün adına,
Türk çatıb hər zaman türkün dadına.
Yetişər Kərkükün  hər fəryadına,
Basılmaz, yer qopa, goy enə Kərkük.

## ÜRPERTİ

Gezerim sırayla Türk yurtlarını,
Ay yıldızın nazı ürpertir beni.
Özlerim Tiyanşan bozkurtlarını
Ozan Heyitin sazı ürpertir beni.

Musulda Kerkükte kesilir dilim,
Urumçi şehrinde kırılır belim.
Çaresiz kalırım uzanmaz elim,
Karanlığın izi ürpertir beni.

Türkmen Dağı öksüz yaralı şimdi,
Bağrında dertleri sıralı şimdi.
Bütün hayalleri  karalı şimdi,
Yaslı, yaşlı gözü ürpertir beni.

Karabağım tutsak boynunu büker,
Tebrizim gözünden kanlı yaş döker.
Seadetim bu hal içimi yakar,
Gardaşların sözü ürpertir beni.

Velhasıl tükenmez bitmez derdimiz,
Gayrı seferlere çıkmaz ordumuz.
Şehit düşer yiğidimiz, merdimiz,
Yüreklerin közü ürpertir beni.

## SEV MƏNİ
(qəzəl)

Gəl, bu bahar, açsın çiçək, gülşənə gir, dər, sev məni,
Şeh çəmənə səpilməmiş, al yanağa sər, sev məni.

Qoyma bu gül könül qıra, yad bir elə yuva qura,
Əğyar əzə, əğyar qıra, sübhü tezdən, tər sev məni.

Çıx təpəyə, gəz dağ kimi, dağətəyi oylaq kimi,
Çeşmələnmiş bulaq kimi, gözlərimi gör, sev məni.

Mən Ay olam, Günəş olam, mən göy olam, mən ərş olam,
Ruhun özündə kaş olam, Rəbbimə get, sor, sev məni.

## BU NECƏ EŞQ, SEVGİLİM

Məni unutmaq, adam,
səndə dönüb adətə,
Özüm də mat qalmışam,
səndəki məharətə.

Görüncə başlayırsan,
”Canım ”, ”Gözüm”,
”Sevdiyim”...
Bəhanələr səndə çox...
Bu necə eşq sevgilim?

***<u>Səadət Qərib</u>***

Buz  kimi baxışınla,
məzlum-məzlum baxırsan.
Elə ki, xos üz gördün,
yandırırsan, yaxırsan.

Sonra məni suçlayıb,
borclu da cıxarırsan.
Söz tapa bilmirəm mən
Quruyur hətta dilim.
Sən söylə mən bilmirəm,
Bu necə eşq, sevgilim?

Nə bir səs var, nə soraq.
Yerini bilmir heç kəs.
Adın dilimdə əzbər,
Səni sevdim mən əbəs.

Yerə -Göyə sığmıram,
Yalvarıram Allaha.
Silsin qəlbimdən səni
Açsın gözümü daha.
Mən də yaşaya bilim
Bu necə eşq sevgilim?

## HİCRANIN SƏSİ

Zaman axıb gedir, ömür qısalır,
Payız yarpağıtək illər tökülür ,
Ümidin əlləri üzülür yerdən
Mənimsə bağrımın başı sökulür.

Elə ki, qəlbimdə bahar açıldı,
Tələsik özünü yetirdi payız,
Duygular saralıb xəzana döndü,
Ümidi gözümdən itirdi payız.

Kəfənə bükülən arzularımı,
Elə qəlbimdəcə dəfn eyləmişəm,
Hansı birisini söyləyim indi?
Bilmirəm sevgiyə mən neyləmişəm.

Bir yol sevinmədi bu yazıq könlüm,
Bir ürək dolusu sözüm olsa da.
Daha vüsalına gumanım yoxdu,
Sənin yollarında izim qalsa da..

## SEVƏRKƏN AYRILMAYAQ

Sevərkən ayrılmağın,
Günahı böyük olar.
Günah işlətmişik biz,
Qayıt, sevgilim, nolar.

Qayıt, məni də qaytar,
O açılan sabaha,
Səndən körpə uşağtək,
Ayrılmaram bir daha.

Bu eşqin de, adı nə?
Qovuşmadan ayrıldıq,
Necə oldu əzizim,
Yol ayrıcında qaldıq.

Yadındamı günəştək,
Boylanardın səmadan.
Gəl qovusaq son dəfə,
Ayrılmayaq, ay adam!..

## ARZUSUZ BİR ÜRƏK

Bir zamanlar arzular qanadındaydım,
indi qanadı qırılmış arzular kimiyəm.
Mən də sevdim, sevənlər kimi.
Sən demə bu boyük sevgimin qatili
yolumu gözləyirmiş,
yavaş-yavaş məni öldurməkçün...
Mənsə dünyadan bixəbər
rəqs eyləyirdim səmalarda,
azad bir quş kimi.
Bilmirdim ki, o sevgi sarsılacaq,
o qanadlar qırılacaq.
İndi sevgisiz, arzusuz bir
ürək daşıyıram köksümdə.
Nə o qanadlar mənimdir,
nə o ürək.
Sevgisiz
kim-kimə gərək?

## KİÇİK QIZIN BÖYÜK HEKAYƏSİ

Salam ana!
Oxu bu məktubumu, yazıram sənə...
Sənsizəm, sənsiz,
tək, yalnız, kimsəsiz...
Sənsiz olan günlərimi
yazıram əllərimə
Sağ olsun, yazmağı da
öyrədir müəllimə.
Hardasan ana?! Tez gəl,
Bu gün " ad günümdür" gəl- gəl,
Sən məni bu günkü gün
dünyaya gətirmisən
yeddi il bundan əvvəl.
Bu gün də gəlməsən sən
düşünərəm sən məni bu 7 il boyunca,
doyunca sevməmisən...
Söz vermişəm özümə,
bu gün ağlamayacam
Bu günkü gün özümü
anasız saymayacam.
..... Bununla düz mən sənə
yeddi məktub yazmışam...
Bura "Uşaq evi"ymiş
uşaqlar söylədilər
anasızsan dedilər!
Qayıt dalımca ana!!!
Bilirəm ki, sən məni
nə ola tək qoymazsan,

Məni ”uşaq evi”ndə  kimsənin ümidinə
heç zaman buraxmazsan.
Düşünmüsən yəqin ki,
burda rəfiqə tapım...
Yeni dostlar tapmışam,
yeni rəfiqələr çox
amma elə sanıram
dünyada səndən əziz
bir tək rəfiqəm də yox.
Düzdü, mehribandılar...
Müəllimərniz şirin,
amma ürəyimdə sənin başqadır yerin.
... Yadımdadı, bir dəfə
səni incitdim yaman, atamın işdən dönüb
yeni gəldiyi zaman.
Qolumdan  tutub bərk-bərk,
yamanca çimdiklədin,
Məni incitdiyini  heç özün də bilmədin.
Qolumda barmaqların
hələ də izi qalır...
Bu iz həmişə səni mənim yadıma  salır .
... Dostlarımla oynayıb,
bir gün evə gələndə
Gördüm hamı ağlayır.
Sən isə,  ağlamırdın...
Bilmədim nələr oldu?
Dünyamı qopardılar,
Atamı çiyinlərdə,
səninsə qollarından  yapışıb apardılar...
Mənsə uşaq evində anasız “Ad günündə”...

## ELƏ İŞLƏR VAR Kİ...

Elə işlər var ki, içindən çixa bilmirsən,
günlərcə, aylarca düşünüb, durursan.
Elə söz olur ki, dilinə gətirə bilmirsən,
zəhər kimi onu udub, durursan.
Hər şey qəribədir həyatda...
Bir də görürsən həyatında birini silmək istəyirsən.
Heççürə silə bilmirsən,
Həmisə solundan asılıb sanki.
ürək həmişə onunla dolub, boşalır.
Elə insan da var ki,
qəlbindəcə dəfn edirsən.
amma, amma  həyatında da qalır...
Həyatmı  qəribə, yoxsa insanlarmı?
Bilmirəm...
Insan bəzən həyatın  qədrini bilmir.
Həyat özü bir insandır.
Insanın özü də bir həyat...

## SƏNİ SEVMƏK

Səni sevmək...
elə ilk başdan "ayrılığı" sevmək deməkdir.
həsrəti, hicranı, yuxusuz gecələri,
və sənsizliyi qəbul etməkdir.
Səni sevmək...
gəlməyəcək birini üzünə baxmayan
yolları, cığırları, sənə insafsız davranan həyatı,
ürəyində qaysaq tutmuş yaraların çatını,
acıların, üzüntülərin qatını səvməkdir.
Səni sevmək....
Olmayacaq duanı ümidlər qoynunda bəsləmək,
Bir anlıq sevinc üçün, böyük kədərlərə,
dərdlərə qatlanmaq,
eşq dolu gözlərdən daman qüssəyə,
dodaqda donan bir ovuc saxta
təbəssümə təslim olmaq,
içindəki yanğıyla yanmaq, qıvranmaqdır.
Səni sevmək..
səssizliyi, qaranlığı sevməkdir
Çünki, o səssizlikdə olan
sənsizliyi bağrına basmaq,
sevgini qucaqlamaqdır, cavabsız suallara
cavab axtarmaq, çırpınmaqdır.
Və səni sevmək
bütün bunları bildiyin halda ,
yenə də SEVMƏKDİR.

## TÜRKÜM BEN TÜRKÜM

Tarihimi ecdadımı Atamı,
Biliyorum evet Türküm ben Türküm.
Tarihim okuyup sonra rotamı
Buluyorum evet Türküm ben Türküm.

Cömertim bilirsin ekmek aşıma,
Vefalıyım toprağıma taşıma.
Gece gündüz Kızılelma düşüme,
Dalıyorum Evet Türküm ben Türküm.

Turan menziline yürürüm daim,
Bana engel değil dünyalık naim.
Adalet her şeyin üstünde kaim,
Kılıyorum evet Türküm ben Türküm.

Türk'üm ve layığım şerefe şana,
Kuru bir ırkçılık taşımaz mana.
Güçlüden değilim haklıdan yana,
Oluyorum evet Türküm ben Türküm.

İtikatım sağlam imanda pekim,
Bu mübarek yolda bin çile çekim.
Davam da, kavgam da yalnızım tekim,
Kalıyorum evet Türküm ben Türküm.

Musula Kerküke yürek sızımla,
Alperence kalemimle yazımla.
Özümle ağlayıp yine özümle,
Gülüyorum evet Türküm ben Türküm.

## İYİKİ DOĞMUŞSUN ECE
### *(Gelin kızıma)*

Sanki tatlı bir meltemdin,
Baharla birlikte, geldin.
Fert'imi nerden bildin,
Senle gündüz oldu gece,
Iyiki doğmuşsun, Ece!

Bulutlara değdin geldin,
Yağmur gibi yağdın, geldin.
Bir gecede doğdun geldin,
Kızım adın iki hece,
İyiki doğmuşsun, Ece!

Güvercinler gibi uçtun,
Beyaz güller gibi açtın.
Mis gibi kokular saçtın,
Yavruma oldun bilmece,
İyiki doğmuşsun, Ece!

Oğluma eş olmak için,
Mutluluğu bulmak için.
Beraberce gülmek için,
Hayat böyle bir şey bence,
İyiki doğmuşsun, Ece!

## CANIM ANAMA

Pis günün ömürü az olar dedik,
Amma ki, xoş bir gün görmədin ana.
Külək saçlarını yollara səpdi,
İllərcə onları hörmədin, ana!

Zamanın ağrısı sinənə çökdü,
Əzablı günlərin boynuna yükdü,
Allaha şükr olsun, Allah böyükdü,
Nə qədər dərd çəkdin, demədin ana!

Alıb, dizlərinə laylalar dedin,
Mənim  o qəriblik dərdimi yedin,
Allaha sübhədək dualar etdin,
Ay, cəfakeş ana, ay, mətin ana!

Dünya boyda dərdi çəkmisən hər vaxt,
Gülmədi üzünə əvvəldən həyat.
Ümiddən toy etdin, arzudan büsat,
Nəğmədir hər sözün, söhbətin ana.

Ümman sevgi verdin hər birimizə,
Nemətsən, sərvətsən sən ömrümüzə.
Dözdün acılara, qıymadın bizə ...
Əks olur hər anın, zəhmətin ana.

Heç vaxt  getməsin qoy, əməyin bada
Layiqsən  sevgiyə, ən uca ada.
Dilimin əzbəri sənsən dünyada,
İnşAllah, bitəcək möhnətin ana!

Yaşın çoxaldıqca yaşarır gözüm
Yenə tab gətirmir qələmim, sözüm
Əlindən min kərə öpürəm özüm..
Bəsimdir  varlığın, şəfqətin ana.

## GETMƏ

Son zamanlar ağlıma,
yaman tez-tez gəlirsən...
Görürsənmi sənin də ,
getməyə yerin yoxdur.
Ürəyinin həbsindən,
gileylənib deyirsən.
Ürəyimi azad et ,
” ömürlük cəza ”çoxdur.
-Dedim axı gedərsən,
dönmək imkanın yoxdur ..!

Bu gün düşündüm artıq,
səni azad eyləyim.
Amma qəlbim sızladı,
buraxmadı neyləyim.
Elə kövrəlmişəm ki,
gizlətməyim, söyləyim.
Sənsiz yaşayammıram,
sənsiz məkanım yoxdur.
Əğər yenə gedərsən,
dönmək imkanın yoxdur..!

Get, desəm də getmə sən,
qal, ömürlük qəlbimdə,
Qoy kök atsın sevgimiz,
çiçəklənsin könlümdə.
Daha sevə bilmərəm,
heç kimsəni ömrümdə.
Elə düyün vurmusan,
sökmək imkanım yoxdur...
Əgər, yenə gedərsən,
dönmək imkanın yoxdur!

## SEVGİ NAĞILIMIZ

Sevgilim bu gecə duyğu yüklüyəm,
Yağışlı  gecədə sənsizəm yenə.
Aralı düşmüşük bir-birimizdən,
Neyləyim, əllərim çatmır ki sənə.

Səma buludları asıb belindən,
Yeddi rəng boyanıb naxış əlinə.
Mənim də gecənin ysğışı  sənsən,
Toxunur əllərim  yağış əlinə.

O nağıl dünyamız xəyallardadı,
Gedirəm hərdənbir səni görməyə.
Yığıb misraların ən gözəlini,
Səninçün şeirdən  çələng hörməyə.

Əllərim əlinə dəysə bir kərə,
İsinər ürəyim, qızınar fəqət.
Məhəbbət kəlməsi yadımdan çıxıb,
Gəl, mənə yenidən  ”sevməyi” öyrət!

Gəl, verək əl-ələ, uçaq göylərdə,
Sevgi nağılımız gözləyir bizi.
Göydə ulduzlar da həsəd aparsın,
Qoy, göylər qısqansın bu sevgimizi.

## SEVGİM

Könlümdə açılıb yaz çiçəkləri,
Qızılgül, bənövşə, lalə, yasəmən.
Bələdçim ürəyim, ümid diləyim,
Gəlmişəm sevgimlə hüzuruna mən.

Ürəyin köksümdə əmanətimdi,
Bəslədim hey onu məhəbbətimlə.
Bir gün qovuşarsan əbədiyyətə,
Bil ki,  gedəcəyəm sədaqətimlə.

Sanma ki, sən yoxkən, sənsiz yaşadım,
Ey mənim qəlbimin şahı hökmdar!
Durub qulluğunda o xatirələr.
Onlardan savayı başqa kimim var.

Bir qəlbdə nə qədər arzu, kam yatar,
Dəniz dalğasıtək coşub çağlayan.
Yelkənsiz qayıqtək yolun azanda,
Körpə uşaq kimi dolub ağlayan.

Daha şeirlərim dil aça bilmir,
İçində əridir eşq kəlməsini.
Qoy sənə sevgimi gözlərim desin,
Eşit bu könlümün həzin səsini.

## ÜŞÜYƏN XATİRƏLƏR

Üşüyür hər gecə xatirələrim,
Yoxluğun borana salıb ömrümü.
Saçımda qiş fəslin oğlan çağıdır,
Kipriyim qılınctək kəsib səbrimi.

Daha taqəti yox ürəyimin də,
Yaralı quş kimi çırpınır hərdən.
Bir sevgi kəlməsi dilimin üstdə,
Hər gün can tapşırır, ölür qəhərdən.

Susuz səhra kimi yanaqlarımı,
Nə ciskin, nə yağış islada bilmir.
Bu nə qərib duyğu, nə haldı Allah?!
Əlim göz yaşıma ta çata bilmir.

Arzular qocalır, tükənir ömur,
Nə taqətim qalıb, nə də ki halət.
Əzrayıl havaxtdı qapıma gəlmir,
O da ünvanımı unudub əlbət.

Ağlına gələcəm xatirə kimi,
Evini rəsmimlə döşəyəcəksən,
Əynini qalın gey, soyuqdu, ömrüm,
Qəlbimə qış gəlib, üşüyəcəksən.

## AZƏRBAYCAN QADINI

***(Almaz İlahə Əhmədovaya ithaf olunur)***

Bir ana var,
butun heyatını, gəncliyini ovladlarına bəxş edən
Bir ana var,
Özünü tamam unudub,
ömrünü ancaq, övladlarına sərf edən.
Övladları yolunda hər əzaba qatlanan.
hər zülmə dözərək, alovlanan, odlanan.
Gecələri ağlayan, gündüzləri də gülən,
övladının dərdini, sevincini tək bölən.
Min bir əzab-əziyyətlə onları tək böyüdən,
hər yerdə tərif edib övladını hey öyən.
Bir ana var...
Candan əziz sevdiyi övladının vaxtsız
dünyanı tərk etməsini
özünə yük eləyib ürəyində daşıyan,
bu acıyla, bu dərdlə, yaşamağa məcbur qalan, yaşıyan.
Bilirdi ki, fələk də onunla oyun oynayır,
O isə fələyə boyun əymədən,
Qaranlıqdan qorxmadan
İşığını arayır,
fələyi isə qınayır...
Həyatda haqsızlığa, hər əzaba dözürdü.
Büdrəyib yıxılsa da, tez ayağa duraraq,
Yenə də dik gəzirdi.
Qürurunu qoruyub özünü şax saxlayan,
Ümidini sabaha, gələcəyə bağlayan
Dəyanətli, ləyaqətli o qadın,
O qadın... - AZƏRBAYCAN QADINI

## QADIN NƏ İSTƏR

Qadın bir əsərdir, qadın bir dastan,
Onu həm oxuyub,  oxşamalısan.
Qadın susanda da, gözlər danışar,
Onu baxışından anlamalısan.

Qadın incə bir gül, zərif  bir çiçək,
Qəlbi çox həssasdır, həm də dərindi...
Sevgiylə yanaşsan onun qəlbinə,
Sənə sevgisiylə ömür verəndi.

Qadın gözlə deyil, qulaqla sevər,
Sevgisin qəlbinə büküb gizləyər,
Öldürsən sevgisin sınar içindən
Səni də qəlbindən, ömürlük silər.

Qadın səbirlidir, dərdə dözəndi,
Bəzən bulud oar, bəzən yaş tökər.
Səbrini daşırtsan, tükətsən əyər-
Hər şeyin üstündən silər, xətt çəkər.

Qadın diqqət istər, məhəbbət umar,
Acı söz istəməz, tək hörmət istər.
Qadın hər bir yaşda, sevıb-sevilmək
Verdiyi dəyərə o qiymət istər!!!

Qadına hörmət et!..  o da bir Ana,
Dəyər ver, sındırma səni sevəni.
Çətin günlərində əlindən yapış,
Qadındı dünyaya gətirən səni.

Qadın tez bağışlar, unutmaz, əsla
İnamın qırarsan, birdə inanmaz.
İsti yuvasını uçurma, əsla,
Uçurtsan quş kimi, bir daha Dönməz!!!

## AXTARIRAM YERDƏ MƏN “GÖY ÜZÜNÜ”

Dəyişibdir dövran, dəyişib zaman,
Yalan azad olub, həqiqət əsir,
Ədalət qoluna taxılıb zəncir..
Haqsızlıq qolunu sallayıb gəzir.

Şeytanlar gəzərək Yerin üzündə,
Zikrsiz insanı salır toruna,
Uyma sən şeytana, təfəkkürlü ol,
Lənət oxunmasın sonra goruna.

Dilin ” dua ”olsun, qulağın ” azan”,
Üsyanla yaşama, şükür elə sən.
Tövbə et, günahla oynama heç vaxt,
Nurlu bəraəti ala biləsən..

Torpaq sinəsinə çəkib ahları,
Saymaqla bitərmi İnsan günahı.
Dinini, Allahı unudanların,
Qaranlıq olacaq bir gün sabahı.

Yer üzündə olan bu tufanlardan,
Göylərin tufanı baxıb təngimiş.
Haraylı, gür səsli o şimşəklərin,
Yerdəki şimşəkdən səsi səngimiş.

Baxıram səmaya-aydın, tərtəmiz,
Məcburam yazmağa sözün düzünü.
Tapmıram heç yerdə elə möcüzə,
Axtarsam da hər gün mən “Göy üzünü”.

## MƏHKUM OLDUM BU DƏRDƏ

Ürəyimdə sürünür,
Hələ də qəm ilbizi.
Sənsiz seçə bilmirəm,
Gecə ilə gündüzü.
Ürəyimdən qopmusan,
Qalan bir yara izi.
Qara sevdamın ruhu,
Çoxdandı göylərdədi,
Bəs onda görən  yeri,
Niyə belə  göynədir?...

Məhkum oldum bu dərdə,
Kədər sevincim olub,
Dərd mənim son beşiyim,
Yamanca nadinc olub.
Məhkum oldum bu eşqə,
Heç yaşamadım ki dinc,
Qismətim belə imiş,
Məndən qaçdı hey sevinc.

Yuxum canıma məlhəm,
Sıxıram gözlərimi,
İçim içimi yeyir,
Çölüm özgələrini.
Xatirinə gələrsə,

Unut, heç yad eyləmə.
Sən mənə baxma gülüm,
Ömrü bərbad eyləmə!

## HƏR ŞEYƏ BİR AZCA "SƏN" QATACAĞAM "

Sənsiz heç bir şeyin dadı qalmadı,
Silib sənsizliyi  mən atacağam.
Udduğum havaya, içdiyim suya,
Bir az da özümə "sən" qatacağam.

Yaşıl yamaclarda şehin səthinə ,
Çiçəyin ətrinə, gülün ətrinə,
Mənə yaşatdlğın sevgi xətrinə,
Sazıma, sözümə "sən" qatacağam.

Dəli küləklərə, əsən yellərə,
Yağan yağışlara, axan sellərə,
Sənsiz yaşadığım ötən illərə,
Acıya, dözümə "sən" qatacağam.

Son ümid, son arzu, son istəyimə,
Bu günə, sabaha, gələcəyimə.
Səninlə ağlayıb güləcəyimə,
Bir az da gözümə sən qatacağam.
Hər şeyə bir azca "sən" qatacagam!

## KÖRPƏ İLƏ ALLAHIN SHBƏTİ

Doğumuna bir gün qalmış, körpə soruşar Rəbbinə;-
-Deyirlər ki, sabah məni,
göndərirlər dünya adlı o bəd "YERƏ"
-Axı Rəbbim dilsiz, gücsüz bir
körpəyəm, sığınmışam sizə burda
-Göndərməyin, Uca Tanrım, qorumazlar məni orda...
-"Qərarını mən verəcəm..." Yaradan söyləyər yenə...
-Sənə qayğı, şəfqət verən MƏLƏK göndərəcəm sənə.
Körpə fikrə gedib bir an, bir də söyləyər yenidən;-
-Çox rahatdır bura mənə, darıxmasam əgər hərdən..
Hüzurluyam mən burada, istəmirəm gedəm "Yerə"...
İstəyirəm burda qalam, bu rahatlıq yetər mənə...
-Tanrı cavab verər yenə: -Səninçün layla oxuyan,
gecə-gündüz başın üstdə səni gözütək qoruyan,
güvən, sığın o mələyə, çatacaqsan hər diləyə...
Duyacaqsan sevgisini, çünki sevəcək o səni...
O, sım-sıcaq şəfqətiylə, xoşbəxt edəcək bil, səni...
-Birdən onun nəğməsini anlamasam,
rəhminə dönmək istəsəm bunu necə xəbər verim?!
Birdən o yad dıldə oxur, anlamaram nəğməsini...
Necə dönüm sənə Rəbbim, öyrət bunun çarəsini..
Allah nurlu nəzəriylə sığalladı körpəsini..
Dedi öyrədər mələyin sənə "yaşam surəsi"ni.
Əllərini mənə tutub qaldıranda dua üçün...
Qoşularsan o duaya, yalvararsan için-için...
O vaxt səni esidəcəm, biləcəm hər hallarını.
Mələyin də oyrədəcək mənə donmə yollarını..
Lazım gəlsə səndən ötrü özünü qurban verəcək.
Hər gün səni əzizləyib özundən də cox sevəcək.
Körpə bir az rahatladı, bir az susdu, bir az durdu.
Üzün tutub Allahına-
-O "Mələyin "adın sordu..
Yaradan söylədi: - O kəs, nur verəndi gözəlliyə,
Səni hər şeydən qoruyan, "ANA" söylə o mələyə...

## DÜNYANIN ƏN BÖYÜK AŞİQİ MƏNƏM

Sevgim yaşayırsa demək diriyəm,
Nə Leyli, Nə Şirin, nə də Əsliyəm.
Yoxluğunu belə sevən biriyəm,
Dünyanın ən böyük aşiqi mənəm!

Gecələr mənimtək ulduzu sayma,
Həsrət yarasını qoparıb oyma,
Dözməzsən, yerimə özünü qoyma-
Dünyanın ən böyük aşiqi mənəm!

Sevmə mənim kimi, sənə qıymaram,
Sənin ürəyinə hicran qoymaram .
Yüz illər keçsə də, səndən doymaram-
Dünyanın ən böyük aşiqi mənəm!

Sənsiz səninləyəm yaşa doluram,
Dərdim çiçəkləyib,  mənsə soluram.
Sənin xatirənlə xoşbəxt oluram-
Dünyanın ən böyük aşiqi mənəm!

Yaşadım ümüdlə arzu, diləklə
Ətrini duyaraq yellə, küləklə,
Dünyadan gedəcəm sevən ürəklə,
Təsəllim eşqimin aşiqi mənəm.
Dünyanın ən böyük aşiqi mənəm!

## MƏNİM HƏR İKİ DÜNYAM

Hər kəsin bir dünyası var.
O bu dünyasında bir nağıl dünyası qurur.
Xatirələr, arzularla daşınır o nağıllar dünyasına.
O nağıl dünyada da Günəş olmur həmişə,
Qara buludlar, leysan, duman, ciskin.
Bir də...
Uçurumlar, sellər,
nələr, nələr...
Bunun hamısı bu dünyanla
o dünyan arasında xatirələr.
Bir pilləkən də durur iki həyat arasında .
Sən qalxdıqca o azalır,
Bir pillə düşür keçmişinə.
Bir nəğmə bəslənir
həyat eşqinə.
Hər iki dünya sonsuz məhəbbətin başlangıcıdır.
Hər şey gözəldir bu dünyada,
hər şey əzəldir o dünyada...
Sən yaşamağa layiq ol Sevgim,
Sən yaşanması gərəkən ən gözəl hissimsən!
Sən nə gözəlsən hər iki dünyam!

## "MƏN DƏ İNSANAM"

Anamın bətnində mən,
hələ də yarımcanam
böyüyürəm, anbaan
Hələ yarıinsanam.

Yox!!!- Hələ tam deyiləm,
Mən hələ bu günümdə,
həyatını görməmiş,
həyatdan gileyliyəm.

Anam canından verir,
Atam qanından verib...

Nə ata, nə anamın
üzünü görməmişəm...
bunu da bilirəm ki,
hələ böyümımişəm.

Arzum böyükdür ancaq,,,
Atamı görməliyəm,
Anamı görməliyəm.

Anam hey əzizləyir,
hər gün bətnində məni.

Mən də insan oluram,
get- gedə, yavaş- yavaş.
Ətə- cana doluram.

Bax , iki qulaqlarım,
İki də gözlərim var,
Tələsirəm doğulum...
Atam- anam bilməyir,
onlara qucaqdolu,
Sevinc, istəklərim var.

***<u>Səadət Qərib</u>***

Bir gün qulaqlarıma,
Qəribə səslər gəldi,
Get - gedə səs ucaldı,
Get - gedə səs yüksəldi.

Öldürəcəksən dedi,
bətndəki uşağı,
nə qədər ki, gec deyil,
nə qədər böyüməyib,
uzanmauıb əl- ayağı.

Anam ağladı, durdu,
O, nədənsə susurdu,
günahkar adam kimi.

Bilmədim amma nədən,
razılıq verdi məni,
yox etməyə bətndən.
Demək qanunsuzammış,
anamın can evində.

Demək insan olmadan,
nə məzarım olacaq,
nə bir pak kəfənim də...

Hökm oxundu o gecə,
Məni yuvamdan alıb.
atacaqlar gizlicə...

Canıma qıyanların,
Deyin günahkarı kim?
Atam, anammı görən?
Yoxsa əlləri qanlı,
Ağ xalatlı o həkim?

## EŞQİN DÜNYASI

Ey mənim qanıma hopmuş məhəbbət,
Qəlbimi yandır ki, yaşıya bilim.
Bu yatmış ruhumu oyat canımda.
Əbədi bu eşqi daşıya bilim.

Şirin xatirələr məşuqum olsun,
Bir an ayrılmasın mənim yanımdan.
Həsrətin kök salsın damarlarımda,
Ruhumla çıxarsın səni canımdan.

Ey mənim qanıma hopmuş məhəbbət,
Sənsiz bu dünyanın nədir mənası?!
Dünyanın içində neçə dünya var -
Ən gözəl dünyadı eşqin dünyası!



## OĞLUMA
(***Fəridimə***)

Bu gün şad günündür, Fəridim mənim,
Sən mənim ömrümün ilk nübarısan,
Allahın verdiyi ən şirin payım,
Şirin həyatımın nobaharısan.

Otuz bir il nə tez, ötüşdü oğlum-
Sən mənim gözümdə hələ körpəsən,
O körpə çağların yadıma düşdü,
Mənimçün hələ də böyüməmisən.

Sənin nəfəsini duyduğum gündən,
Sinəmin üstünə dünya sərmisən.
Səni qollarıma aldığım o an,
İlk ana adını mənə vermisən

Göydən ulduzları dərib gəlmişəm.
Hər arzun gül açan, bir ürək olsun!
Övladtək ilk səni şəkər bilmişəm,
Sənin bu ad günün mübarək olsun!!

## NƏVƏM KƏRƏMƏ

Payızın sərt çağında,
Soyusada havalar.
Evimiz Günəş doğub,
Nəvəm gətirib bahar.

Bal nədi, şəkər nədi?
Bal, şəkərdən şirindi,
Dərya,ümman, göl nədi?
Gözlər göldən dərindi.

Eləki ağlayanda,
Büzüşür dodaqları.
Gül-çiçəyin rənginə,
Qarışır yanaqları.

İşıq saçıb həyatım,
Dünyama gəlişiylə.
Qəlbimə su çilənir,
Bir udum gülüşüylə.

Necə də doğru imiş,
Nəvə şirindir deyə.
Neçə illər idi ki,
Həsrətdim bu sevgiyə.

Allahıma min şukur,
İlahi sevgi vermiş,
Sevgilərin sevgisi,
Nəvə sevgisi imiş!

Körpə quzum Kərəmim,
Xoş  gəldin ömrümüzə!
Tanrı böyük xoşbəxtlik,
Sevinc göndərdi bizə!

## HƏYAT YOLDAŞIMA

İlk eşqim, ilk sevgim ey can yoldaşım,
”Otuz iki” ildir gedirik qoşa.
Sənlə yaşlanmaqdır, arzum-amalım ,
Yaz bu sözlərimi daim yaddaşa...

İllər öncə girdin ürək evimə,
Qəlbimin sahibi sadəcə sənsən.
Daha otuz il də qısmət olarsa,
Yenə də köksümdə döyünəcəksən.

Əridi qəlbimin soyuq buzları
Qəlbimi yaşadan sədaqətin var..
Xoşbəxtsən əzizim, bilirsən niyə?...
Sənə sevgi verən Səadətin var.

## İLK ADDIMIN MÜBARƏK

İlk addım başlanğıcdır,
İlk addımla başlar bu həyat yolu.
Kərəmim bu günə bir sevinc qatdı,
Nəvəm ilk müstəqil addımın atdı...
Addımlar kiçikdi, addımlar çevik...

Hər addım atdıqca sanki qaçırdı,
Sevincdən günəştək işıq saçırdı...
Dodaqda təbəssüm çiçək açırdı,
Baxırdı gah ata, gah anasına,
Hər addım bir zəfər, o, savaşırdı...

Addım-addım, yürü aramla.
Kərəm, ilk adımın mübarək olsun!
Daha bir addım, daha bir, daha bir, daim addımla...

## ATAMA

Ömrümün qisməti fələkdən qəmdi,
Sinəmdə sağalmaz yaram var, ata!
Sənsiz, qanadları qırılmış quşam,
Sənsiz bu, gözlərim qan ağlar, ata!

Qəfil, xəstə düşdün yatağa, əfsus,
Çarəsiz dərdinə əlim yetmədi.
Aldı gəncliyimi, xoşbəxtliyimi,
Soldu gülşən bağım, gülüm bitmədi.

Şirin xəyalındı təsəllim mənim,
Bir də təsəllimdi sənli yuxular.
Yaşa xəyalımda, yaşa yuxumda,
Ata, sənə hər an ehtiyacım var.

□□˛ ˘ □ □ □□□

Схожу с ума я без тебя  приди ко мне и посмотри.
Прошу тебя , открой глаза, увидь и оцени!

Не будь слепым, к любви ты равнодушным,
Схожу  с ума, тобой я исцелюсь лишь грешным.

В огне любви я каждый день сгораю,
Не забывай,что в этом мире
Лишь для твоей любви я пребываю.

Любовь моя, мне очень по душе твоя любовь шальная,
Ведь я больна твоей любовью сама того не зная.
Схожу с ума...

***Tərcümə: Təranə Məmməd***

## SƏN MƏNƏ, MƏN SƏNƏ MÖHTAC

Həsətim bıçaqtək kəsir,
Ürəyim yarpaqtək əsir,
Baxışım sənə tələsir,
Sən mənə, mən sənə möhtac.

Arzularım qulac- qulac,
Qollarını mənə gen aç.
Günəş olub könlümə şaç,
Sən mənə, mən sənə möhtac.

Ulduzlara qucaq açaq,
Eşqin zirvəsinə uçaq.
Sevgi gətir qucaq- qucaq,
Sən mənə, mən sənə möhtac.

Eşqin andın içən gündən,
Qəlbim səni seçən gündən,
Ürəyinə köçən gündən,
Sən mənə, mən sənə möhtac.

Dəli deməsinlər bizə,
Sevgimiz gəlməsin gözə,
Biz dəliyik eşqimizə,
Sən mənə, mən sənə möhtac.

Sən bir Günəş, mən Ay olum,
Sən bir dəniz, mən çay olum,
Qismətinə mən pay olum,
Biz bilirik könlümüz ac,
Sən mənə, mən sənə möhtac.

## NƏ YAXŞI Kİ...
**(*nəvəmə*)**



Ailəmizin birdənəsi,
Evimizin gülüş  səsi,
Nəvəmə qurban nənəsi,
Nə yaxşı ki, varsan Kərəm.

Hər gün biraz böyüyərək
Addımlayır ürkək- ürkək
Gəlin bir ağızdan deyək
Nə yaxşı ki, varsan Kərəm.

Canımın canından cansan,
Mirvari, inci, mərcansan.
Sən bir dünya, bir cahansan
Nə yaxşı ki, varsan Kərəm.

Fərid-Ecə sevgisisən
Cənnətimin meyvəsisən.
Şeirimin bal kəlməsisən,
Nə yaxşı ki, varsan, Kərəm.

## ACI HƏQİQƏTLƏR

Həqiqət budur ki, yaşamaq çətin,
İnsanlar dəyişib əvvəlki deyil.
Vicdanlar kirlənib, pulun lilində,
İşsizlər avara, gəzirlər veyil.

Pulun gücünədir hörmətlə şöhrət,
Yaman" yaxşı "olub, yaxşılar "yaman"
Millətsiz dəm vurur...Vətən - millətdən,
Baxıram nə qədər korlanıb -zaman.

Yaralı könüllər üsyan püskürür,
Ümüdlər qapqara gecə olubdur.
Hər kəsin ürəyi kədər dənizi,
Əzabla, qəzəblə, qəmlə dolubdur .

Sevginin təməli sədaqət idi,
Kərəmtək sevənlər kələksiz olub.
Sevmək ürək istər deyib şairlər,
İndi sevənlər də ürəksiz olub.

Fitnə-fəsad dolu, bu puç dünyada,
Çətindir yaşamaq təmiz ad ilə.
Haqsızlıq içində haqqın fəryadı,
Necə ayaqlaşsın ?...bu həyat ilə.

Acizlik olmasın qoy fəlsəfəmiz,
İnamla haqq söylə, sən haqsız olma!
Hünər bayrağımız ədalət olsun,
Vətənə, millətə biganə qalma!!!

## XOŞBƏXTLİK QOY GƏZSİN SƏNİNLƏ QOŞA

Deyirlər həyatın min bir üzü var,
Sevgisiz yaşasan dünya olar dar,
Qəlbinin həmdəmi güvəndiyin yar,
Bu qısa həyatı sevgiylə yaşa,
Xoşbəxtlik qoy gəzsin səninlə qoşa..!

Gözləmə kimdənsə "yağlı" bir həyat,
Özünə güvənib eşqdən dağ yarat,
Arzudan toy elə, ümiddən büsat,
Bax belə yaşa ki, dəysin alqışa-
Xoşbəxtlik qoy gəzsin səninlə qoşa..!

Vicdanı yatmağa qoyma heç zaman,
Mərhəmət uyusa, oyanmaz iman,
Yaxşılıq elə ki, utansın yaman,
Dostunun sirrini vermə yoldaşa-
Xoşbəxtlik qoy gəzsin səninlə qoşa..!

Gözəl bax, gözəl gör, görsən də qara.
Şərdən bal tutanlar tez gedər gora,
Yardım et birinə, düşəndə dara,
Dəyərli vaxtını keçirmə boşa-
Xoşbəxtlik qoy gəzsin səninlə qoşa...!!!

Bu dünya fanidir, deyibən gəzmə,
Lağ edib kimsənin, qəlbini üzmə,
Həyata bağlan ki, həyatdan bezmə,
Ömrünü şərəflə çatdır sən başa-
Xoşbəxtlik qoy gəzsin səninlə qoşa!

## GÜNƏŞ DOĞANDA

Qarışıb duyğular dəniz səsinə,
Təbəssüm eləyir şeir töhvəmə.
Dəniz kükrəyəndə ürək də coşur,
Bir sevinc iz salır ömür səyfəmə.

Dalğalar sahilə üsyan etdikcə,
Qəlbim də dəniztək təlatüm edir.
Təbiət qoynunda coşan dənizlə,
Xəyallar baş alıb uzağa gədir.

Acılar çəksəm də ümid var idi,
Sevgin  ürəyimdə dayağım oldu.
Qaranlıq qoynunda itib batanda,
Ümüdlər, gümanlar mayakım oldu.

Barışdı həyatla küskün ürəyim,
Dənizlə baş-başa qaldığım anda.
Axıtdım kədəri, qəmi dənizə,
Qovuşdum hüzura günəş doğanda.

## ƏN UZUN SEVDALAR YARIM QALANDI

Nə yaram sağaldı, nə həsrət bitdi,
Eşqimiz zülmətdə sanki yaranmış.
Mənim ümidlərim xəyalla getdi,
Ümidsiz sabahım talan-talanmış,
Ən uzun sevdalar yarım qalanmış.

Varlığın özgədə, yoxluğun məndə,
Xəyalın hər yerdə, çöldə, çəməndə,
Bu sevda ömrümü salmış kəməndə,
"Sevirəm" deməyin demək yalanmış.
Ən uzun sevdalar yarım qalanmış.

Şirin günlər acı xatirələrdə,
Adını yazmışdım hər bir sətirdə,
İtirdim mən səni şeirlərimdə,
Yaşanan hər günüm sənlə olanmış,
Ən uzun sevdalar yarım qalanmış.

Sənsizlik ömrümün zülməti oldu,
Yalnızlıq taleyin töhməti oldu,
Ümidlər qəlbimin möhnəti oldu,
Qismətim olmadın, tale yazanmış,
Ən uzun sevdalar yarım qalanmış.

## MƏHKUM OLDUM BU DƏRDƏ

Ürəyimdə  sürünür,
Hələ də qəm  ilbizi.
Sənsiz seçə  bilmirəm,
Gecə ilə  gündüzü.

Qara sevdamın ruhu,
Çoxdandı göylərdədi,
Bəs onda görən yeri,
Niyə belə göynədir?...

Məhkum  oldum bu dərdə,
Kədər  sevincim olub,
Dərd mənim  son beşiyim,
Yamanca nadinc olub.

Məhkum  oldum bu eşqə,
Heç yaşamadım ki, dinc.
Qismətim belə imiş,
Məndən  qaçdı hey sevinc.

Yuxum canima məlhəm,,
Sıxıram gözlərimi,
İçim içimi yeyir,
Çölüm özgələrini.

Xatirinə gələrsəm,
Unut, heç yad eyləmə,
Sən mənə  baxma gülüm,
Ömrü bərbad eyləmə!

## CANIM OĞLUMA
### *(ELGÜNÜMƏ)*

Sən mənim həyatda  ən şirin payım,
Köksümdə döyünən ürəyim oğlum.
Gündüzlər  günəşim, gecələr ayım,
Tanrıdan ən böyük diləyim oğlum.

Payızda dünyaya  göz açsan da sən,
Ömrümün bağına   bahar gətirdin.
Yığıb, bu dünyanın gözəlliklərin
Özünlə dağ boyda nübar gətirdin.

Sənin gəlişinlə nurlandı dünyam,
Hər şey gözəlləşdi gözümdə, oğul.
Bütün dərdlərimin  yuvası uçdu,
Sevinc yuva qurdu üzümdə, oğul.

Sənə çox yaraşır sevinmək, gülmək,
Sevincin həmişə çox olsun, bala.
Qapını döyməsin nə dərd, nə kədər,
Bütün ağrın, acın yox olsun, bala.

Vicdanı təmiz tut, ləkəsiz olsun,
Həmişə haqq söylə, haqqa arxalan.
Allahın nəzəri üstündə olsun,
Çalış  bu dünyada, sevgini qazan!

## XÖŞBƏXT OL QIZIM...

Təbiətin yaşıl donlu çağında,
Gəlin oldun, sən ay qönçə gülümüz,
Qoy yaz olsun bütün ömür günlərin,
Gecə-gündüz göylərdədi əlimiz,
Xöşbəxt ol ay qızım, toyun mübarək.

Gəlinlik necə də yaraşir sənə,
Bənzəyirsən sanki, ağ göyərçinə,
Hər kəs heyran olub bu gözəlliyə,
Xöşbəxt ol ay qızım toyun mübarək!

İlahinin qüdrəti var canında,
Şirinlıkdə bal yalandı, yanında,
Qoru soykökünü, yaşat qanında,
Xöşbəxt ol ay qızım toyun mübarək.

Bu evdən o evə gəlin köçürsən.
Qədəmin xoş olsun, həyatın gülşən,
Getdiyin ocağın bəhrin görəsən.
Xöşbəxt ol ay qızım toyun mübarək!

## SƏNSİZLƏMİŞƏM

Yenə sənsizləmişəm, yenə yalnız qalmışam,
- Qəlbimdəki sevdamla bir üsyana qalxmışam,
Gizli-gizli ağlayıb, səssizliyə dalmışam,
Ürəyimdə başlayan təlatümü boğsana,
İntizar gözlərimi bu yollardan yığsana.

Yenə sənsizləşmişəm, yalandan gəl sevməyə,
Yenə də yalanını, de ki, gəldim ölməyə,
Yenə danış sevgidən, yenə başla gülməyə,
Yenə inanacam mən, gəlib yalan desənə,
Sonra yenə könlümü, yerlə-yeksan etsənə.

Yenə sənsizləmişəm, eşqin köztək dağlayır,
Axan bu göz yaşlarım buz tutub, buz bağlayır.
Ürək dözmür bu dərdə gecə-gündüz ağlayır,
Ucalıbsan göylərə, daha niyə gələsən,
Son vida edəcəyəm bu sevgimə - biləsən.

## MƏN  EŞQİN ÖZÜYƏM

Bir boş qəlbim vardı,
Onu da sevda oduna atdım,
Qəlim  sənlə  yaşamağa başladığı anda
təbiət  gözəlləşdi
gözlərimdə.
Arzular aşdı, daşdı,
həyat  da başqalaşdı.
Sevgi sarıdı hər  yanı,
qorxunc gecələrim  yox oldu,
Yatmış duyğularım
qəflət  yuxusundan oyandı.
Ulduzlar parladı gözümdə,
Ulduz kimi parladı sözüm də.
Bir tək  sənlə  dünyam gözəlləşdi,
dəyişdi.
...Və sən bir gün getdin,
ürəyimin xəbəri  yox gedişindən...
Hər gün yalanlarla ovundurdum onu.
Əl açdlm göylərə,
yalvardlm Rəbbimə,
Yalanımı ürəyim  bilməsin  deyə.
Axı bilsə qəhrindən  ölər  həmən  an,
Çünki o eşqin özü-
Sən isə  yalan!

## SUSDUĞUNA İNANDIM

Qələmimin için
eşqdən mürəkkəb qoysam,
Seirlərim sevginin
rənginə burunəcək.
Dərddən murəkkəb qoysam,
ağlayacaq
şeirlər.
Nalə- fəryad edəcək,
qəm - qubar görünəcək.
Bu gün mürəkkəbim eşq,
eşqdən yenə yazıram.
Nəğmələrdə, şeirdə
sevgimi yaşayıram.
Buludlarla dolsam da,
Günəşlə ovunuram,
Cismən ayrı qalsam da,
qəlbimdə qovuşuram.
Amma çoxdan eşqimin
qırılıbdır dizləri,
Mən eşqimi böyütdüm,
yazdığıma inandım.
Ən çox unutqan olan,
unutmaram deyəndi-
Dediklərinə deyil ,
susduğuna inandım.

## DARIXIRAM

Darıxıram,
xəyalın ovudur ürəyimi.
Boylanır baxışların
duyğularıma.
Arxanca dikilir gözlərim,
Kipriklərim səpələnir
sevgi yollarıma.
susur ümidlərim...
Yağış oğrun - oğrun
isladır arzularımı
Nəyləyim?..
dinləyimmi səssizliyimi,
Gəcənin qoynunda
boğummu sabahımı?..
Başımı söykəyib qururuma
səni düşünürəm...
Axtarıram
mənə deyə bilmədiyin
sözlərini,
Bir də ürəyimdə
qoyub getdiyin
izlərini...
Yaman kövrəlmişəm,
illərcə arxanca yüyürən
o yorğun sevgimə.
Yaxın gəl qopar onu
ayılsın keçmişindən.
Ovundur həsrətimi
vüsalın beşiyində...

## BAX YENƏ

Bax, yenə baharda baharsız qaldım,
Buz kimi qəlbimin astanasında.
Yəni, bu qədərmi çarəsizəm mən?
Yaz gəlir üstümə qiş havasinda.

Bax yenə hicranın  düşüb izimə,
Vüsal qürbətləşib baxmır üzümə,
Ayrılıq qapımı çalandan bəri-
Gözlərim dikilib Göyün üzünə.

Bax yenə qəmlənib divanə ürək,
Sənsiz bu dünyaya  biganə ürək,
Sevgimin odu da, ocağı da sən-
Tək sənin eşqinə pərvanə ürək.

Bax, yenə baharda baharsızam mən,
Sənsiz bu ürəkdə yaz ola bilməz!.
Gül açmır sinəmdə hisslər, duyğular
Qəlbimə başqa eşq yazıla bilməz!.

Bax, yenə gözləyir qəlbim baharı ,
Sevgi dastanımı qoyubsan yarı.
Ayrılıq üçünmü mən səni sevdim?-
Elə hey gedirəm ümidə sarı...

## SON MƏKTUB

Aramızda olan illərdən sonra,
Düşündüm "son məktub"yazım son dəfə.
Könlü ovsunladı şirin xatirən,,
Yenə "eyni sözü "yazdım on dəfə...

Yenidən qəlbimin coşdu sevgisi,
Qələmdən süzüldü sehirli kəlmə.
Pozanı əlimə aldım ki silim,
Ürəyim titrədi, dedi ki silmə.

İçimə yığılmış o acı sözlər,
Bir anda yox oldu qəfildən yenə.
Yenə qalib gəldi bu "kəlmə " mənə,
Gözəl anlar gəldi gözüm önünə.

Bir anda xəyalın durdu qarşımda,
Gör neçə zamandır gözləyirəm mən.
O sərt baxışını, susqun halını,
İlahi, nə qədər özləyirəm mən.

Nə yerin bəllidir, nə də ünvanın,
Qalaq-qalaq məktub yığılıb məndə.
Hər məktubumda o yazdığım tək söz,
Günbəgün böyüdü sevən qəlbimdə.

Hər zaman o sözü yazdığım anda,
Sevgimiz boylanıb baxır "kəlmədən".
Sanki o kəlmənin gözü-qaşı var,
Həsrətin gözyaşı axır " kəlmədən".

## DAHA SƏNƏ MƏKTUB YAZAN DEYİLƏM

Yazmağa varsa da min arzu, dilək,
Daha sənə mesaj  yazan deyiləm.
Nələr çəkdiyimi biləydin gərək-
Mən sənə bir məktub yazan deyiləm.

Bu eşqin alovu sönməz olsa da,
Ürəyim əhdindən dönməz olsa da,
Könlüm sevgisini danmaz olsa da-
Mən sənə bir məktub yazan deyiləm.

Xətrinə dəysəm də insafsız demə,
Qalmışam çarəsiz, batmışam qəmə...
Sesim  çatmır zilə, düşmüşəm bəmə-
Mən sənə bir məktub yazan deyiləm.

Kövrək ürəyimin amanı yoxdu,
Dumanlı gözümün gümanı yoxdu,
Onsuz da vüsalın zamanı yoxdu-
Mən sənə bir məktub yazan deyiləm,
Axı sənə məktubu  niyə yazım ki?...

## GETMƏK LAZIM

Getmek lazımdırmı? ...sordum qəlbimə,
Qəlbim utanaraq dedi ki mənə:
-Sen gerek deyilsən  o sevdiyinə,
Qalmaqçün   behaneə axtarma yenə!

Sevgi qarşılıqlı olmazsa eğər,
O eşqi əbədi  gərək  siləsən.
Sevməyən  insandan niyə küsürsən,
Sevənin yanında bil ,qiymətlisən.

Artıq şeirlər de xəcalət  çekir,
Mənim  sənə  olan məhəbbətimə.
Bilmirəm, neyləyim, bu sevgimlə  mən,
Məni məcbur  etdi qebahətimə.

Unutma demirəm, bilirəm  onsuz,
Dodaqların məni xatırlayacaq!
”Səni  çox sevirəm” pıçıldadığım,
Qulaqların məni xatırlayacaq!

## ŞEİRİM KİMİ SEVİRƏM

Səni şeirim kimi sevirəm,
düşünər,
misra-misra
oxuyar,
anlayaraq.
Səni  seirim kimi sevirəm,
ağ vərəq üzərində
sevirəm kəlməsini
əzizlər, oxşayaraq.
Heyf,
səni  itirdim,
ağ vərəq  üzərində
illərcə yol gözləyən,
həsrətdən  yorğun düşən  bu üzgün gözlərimdə...
Səni şeirim kimi sevirəm.
Sən hələ çox  şeirimin yazılmayan
sözlərisən.
Sən mənim həyatımın yazılmış əsərisən.

## İLK MƏHƏBBƏT

”Ömrümə ömür ver” deyəndə mənə,
Özüm də bilmirdim nə aləmdəyəm.
Baxışın gözümü hər oxşadıqca,
Bilmirdim yerdəyəm, yoxsa göydəyəm.

Onunla qəlbimin yerini bildim,
Onu ürkütməyə əlim gəlməzdi.
Urəyim tapmışdı oz həmdəmini,
”Sevmirəm” deməyə dilim gəlməzdi.

İlk dəfə sehirli bir nağıldaydım ,
Ümmanlar qoynunda sanki üzürdüm.
Qəribə, yuxum da ərşə çəkilmiş,
Özüm öz halıma baxıb gülürdüm.

Əzəldən vurğunam mən məhəbbətə,
Onunla gözəldir ömrün hər anı.
Əgər olmasaydı, sevgi-məhəbbət,
Bəşər həyatının çatardı sonu.

## GERİ DÖN

Sevgilim əlini uzat sən mənə,
Bu hicran yolunda boğaq həsrəti,
Sənin yoxluğuna dözmədi ürək,
Gəl ataq birlikdə kini, nifrəti.

Bu sevgi yollari eniş-yoxuşlu,
Yolu sona gəldik, geriyə dön bax.
Ay gözüm işiği, süzgün baxişli,
Səni tanimişam sevgindən qabağ.

Mən səndə tapmişam səadetimi,
Başımın üstündə Günəşim ol sən,
Mənim sənə olan sədaqətimi,
Yer də, göy də bilir, sən də biləsən.

Qürura bu qədər verib ixtiyar,
Əziyyət çox etdik bir-birimizə.
Geri dön yenidən olaq bəxtiyar,
Ürəyim ac qalıb saf eşqimizə.

## YOLÇULUQ

Biz yola çıxmışıq, bu həyat yoluna...
Axirəti bildiyimiz, amma sonunu heç vaxt görmədiyimiz
bir yolun yolcusuyuq.
Zaman yaddaşında saxlayır xatirələrimizi,
arzu, əməllərimizi...
Yolun əvvəlində  böyüyən ayaq izlərimiz olur,
sonra arzularımız, sonra səsimiz, nəfəsimiz....
Ən böyük olan da, Allaha sevgimiz.
Mələklər daşıyırıq çiyinlərimizdə.
Qoşa qanadlarında, ümidlər daşıyırlar omrümüzə.
Yazda laləzar olur bu omür yollarımız.
Payızda saralıb, solurlar, ümidlər, arzular...
Xatirələr cücərir arxanca sürünən omür yolunda.
Sən əbədiyyətə qovuşacaqsan bu yolun sonunda.
Karvanın mübarək koçün mübarək...
Bu yolun sonuna xoş gəldin, adam...

## SEVGİMİZ XƏSTƏLƏNİB

Deyəsən " sevgimiz" xəstələnibdir,
Yatağa düşübdür yaman gündədir.
Quruyub ağzında dili-dodağı,
Bəlkə də can verir, can üstündədir.

Yenicə gülürdü sevgimin üzü,
İlk dəfə arzuya kama ermişdi.
Sağalmaz xəstəlik vədəsiz gəldi,
Hələ nə yaşamış, nə gün görmüşdü.

Mən elə bilirdim o çox sağlamdır,
Onu qorumuşdum boranlı qışdan.
Az bəla çəkmədim onun yolunda,
Qoruya bilmədim yağan yağışdan.

Çiçək təravətli olan sevgimin
Soldu ləçəkləri bir - bir töküldü.
Günəş hərarətli olan sevgimdən
Duyğular üşüyüb, bir-bir söküldü.

Qəlbimdən qəm damır, qəlbim ağlayır,
Sevgim xəstələnən o gündən bəri.
Xəzana dönsə də sevgimin izi,
Qalacaq qəlbimdə nişanələri.

## ŞEİRLƏR

Şeir də canlıdır sanki.
Baxar gözləri, danısan dili,
döyünən ürəyi,
Yeriyən ayaqları...
Danısarmıs şeir, ağlayarmış seir,
gülərmiş seir.
Yeriyərmiş seir.
Doğularmış şeir,
Hətta, hətta, ölərmiş seir.

## HƏYAT SƏNDƏ BAŞLAR, SƏNDƏ ÖLƏR

Həyat qısa,
bu həyat məktəbinin yolu uzun,
Oxumaqla bitməz, tükənməz...
İçimdə yenə payız küləkləri əsir,,
yenə ürəyimdə arzular ümidimi kəsir...
Zaman isə səni tələyə salır,
özü geriyə baxmadan harasa tələsir.
Bəzən nə qədər  yol gedirsən get,
yenə də özünü yolun əvvəlində qaldığını hiss edirsən...
Məyər, yaxın görünən yol uzaq,
uzaq görünən yol yaxın olurmuş.
Dünyanın gözü də bu yollarda  qırılırmış.
Yaşamağı bacaran həyatın qədrini bilər.
Həyat isə sən özünsən.
Ömür səndə başlar, səndə bitər.
Həyat isə səndə yaşar, səndə də ölər!

## TƏK DOSTUM QƏLƏM

Deyirlər qələmə bel bağlama, sirrini vermə,
mənliyini uduzar, gedər kağıza yazar...
Mənim isə dostum da, sirdaşım da qələmimdir.
Çünki, o mənim nə yazmaq
istədiyimi məndən yaxşı bilir.
Dərdim kimi vəfalı, qürurumtək
etibarlı, özüm kimi sadiqdir
Əziz dostum "qələm" mənim
səndə olan sirrlərimi nə qədər
hər kəsdən gizli tutdugunu,
aylarca, Illərcə, yazmaq istədiklərini,
mən istəmədiyim sürəcə yazmadığını
yaxşı bilirəm.
indi isə sənə yaz deyirəm!
Susma! Yaz!
Təkcə aşıb-daşan dərdlərimdən deyil,
her şeydən yaz! Bu yalan dünyanın acı gerçəklərindən,
üstü qan gölünə dönən girov torpağların ahından,
insanların könülsüz etdiyi günahından yaz!
Haqqın əsir olmağından,
nahaqqın azadlığından, zülmün qələbəsindən,
insanlığın ölməyindən yaz!
Yox! Yox! təkcə Içimizi qanadan
şeylərdən yox, gözəl şeylərdən də yaz!
Yaradanın yaratdığı insan adlı varlığın möcüzələrdən:-
Saf eşqdən, ilqardan, etibardan, sədaqətdən yaz!
Yaz ki ürəyimin dərd adlı yükü azalsın,
biraz da olsa nəfəs ala bilim
Saxta təbəssümlə deyil, ürəkdən, içdən gülə bilim..

## VƏTƏNDƏ İLK QAR

Pəncərəmin önündə
Bir göyırcin gözləyir
Uçuşan damcıları
Baxış-baxış izləyir.

Göyərçin millətim, can,
Qara həsrət qalanım.
Canım Azərbaycanım,
Qoy başına dolanım.

Xəzərimin qoynunda,
”Qız Qala” başına tac,
Qışın oğlan çağında,
Bir qətrə qara möhtac.

Gözün aydın, Vətənim,
Qar düşdü dağlarına.
Qurban olum qarına,
Həm də ki, ilqarına.

Qərib Səadet isə
Günəşə həsrət qalıb.
Qürbət ellər qəribin
Ömründən ömür çalıb.

Baharlarda baharsız
Buzlaşıbdı arzusu..
Amma xəyallarında
Yallı gedir duyğusu.

Vətənindən ”didərgin”
Saralan bir gülün var,
Bir qəribəm ey Vətən
Məni özünə qaytar.

## AĞLAMAQ

Bəzən ağlamaq istəyirəm,
avazım gəldiyi qədər.
Bəzən ağlamaq istəyirəm,
içimdə  məhkum olan duyğularıma,
yaşamaq istəyimə,
yaşaya bilmədiyim həyatıma.
Ağlamaq istəyirəm bəzən də,
uzun - uzadı bir ağlamaq,
ürəyimin harayını susdurmaqçün...
Yağışı gözümün yaşıyla ıslatmaq üçün,
ağlamaq istəyirəm,
ağlamaq!



## YAMAN KÖVRƏLMİŞƏM

Yaman kövrəlmişəm, bilmirəm niyə,
Yənə dolub ürək olmuşam bulud.
Yenə duyğularım rahatlıq vermir,
Yanan dərdlərimi sevginlə soyut -
Nə olar yaxın gəl, göz yaşın qurut!..

Düzülüb inci tək damlalar gözə,
Toxunsan süzülər yanağa, üzə.
Alışan alovdan bir addım közə,
Kül etmə sevgimi, etməsin süqut -
Nə olar yaxın gəl, göz yaşın qurut!..

Alıbsan əlimdən yuxumu belə,
Bulanıq yuxular gəlməsin dilə.
Düşmüşəm bəlaya mən bilə-bilə...
Günahkar “ürəyim” -Edərəm sübut -
Nə olar yaxın gəl, göz yaşın qurut!..

Dalğın baxışların düşür yadıma,
Səni də, salmışam eşqin oduna.
Son dəfə yetiş gəl sən fəryadıma,
Sil göz yaşlarımı əlimdən bərk tut! -
Nə olar yaxın gəl, göz yaşın qurut!..

Bəlkə də bu mənim son diləyimdi,
Axı məhəbbətin çox gərəyimdi.
Sevən mən dəyiləm, bu “ürəyimdi”
Qürbəttə ağlayan səbrimi ovut -
Nə olar yaxın gəl, göz yaşın qurut!..

Bir busən bəs edər, dinər göz yaşım,
Gör nələr çəkibdir bəlalı başım.
Bilmək istəmirəm neçədir yaşım,
Unutdum keçmişi , sən də gəl unut -
Nə olar yaxın gəl, göz yaşın qurut!..

Xatirən də daha hayıma çatmır,
İntizar gözlərim gecələr yatmır.
Dilim at dəsə də, ürəyim atmır...
İçimdə fırtına, çölümdə sükut -
Nə olar yaxın gəl, göz yaşın qurut!..
Nə olar yaxın gəl, bu yaşı qurut!..



## SƏN QATACAĞAM

Sənsiz heç bir şeyin dadı qalmadı,
Sənsizliyi silib mən atacağam.
Udduğum havaya, içdiyim suya,
Bir az da özümə "sən" qatacağam.

Yaşıl yamaclarda şehin səthinə,
Çiçəyin ətrinə, gülün ətrinə,
Mənə yaşatdığın sevgi xətrinə,
Sazıma, sözümə "sən", qatacağam.

Dəli küləklerə, əsən yellərə,
Yağan yağışlara, axan sellərə,
Sənsiz yaşadığım ötən illərə,
Acıya, dözümə "sən", qatacağam.

Son ümid, son arzu,son istəyimə,
Bu günə, sabaha, gələcəyimə,
Səninlə ağlayıb güləcəyimə,
Bir az da gözümə sən qatacağam.
Ruhumun özünə "sən" qatacağam!

## XATİRƏLƏRDƏ

Gözümü dünyaya yumana kimi,
Ürəyim dərdlərdən doyana kimi,
Körpədən ayrılmış bir ana kimi,
Səni yaşadacam xatirələrdə...

Zülmət gecələrdə ulduz olacam,
Sevgi olub ürəyinə dolacam
Ömür yollarına işıq salacam,
Səni yaşadacam xatirələrdə...

Üfiqtək nə qədər uzaq olsan da,
Fələk oyununda tuzaq olsan da,
Bu əhdə-ilqara yasaq olsan da,
Səni yaşadacam xatirələrdə...

Məhəbbət işgəncəm, eşq ağrım acım,
Bilmirəm bu dərddən, hayana qaçım,
Daha nə çarəm var, nə də əlacım,
Qəlbimdə bir nisgil daşıyacağam,
Səni yaşadacam xatirələrdə...

## GÜCÜN YETMƏZ

Sözünü tutmayan insana sözüm:
Sənə güvənmirəm mən əvvəlkitək.
Ölümün gözünə dik baxır gözüm,
Ölümdən ağırdı güvən itirmək.

Həm aydın səmaydın, həm zülmət gecə,
Bimirdim yalansan, yoxsa həqiqət.
Gözlərmi tutulur, insan sevincə?
Sevgiyə sığınıb verirsən qiymət.

Səndə hünər hanı çarəm olmağa
Qırdığın ürəyin yanğısı bitməz.
Nəyimə gərəksən, yox səndə şəfa,
Vəfamı almağa tək gücün yetməz!

## NİYƏ MƏN

Unutmaq istədikcə,
çox düşürsən yadıma.
Aman, Allah bu nədi?
Vaxt da, çatmır dadıma.

Uydurduğun nağılla
könlümü mest eylədin.
Sevgi dolu dünyamı
Sonra,alt- üst eylədin.

Səni itirən gündən
düşmən oldum bextimə.
Günahsız  bir günahsan,
niyə girdin ömrümə?

Yarım- yarımçıq qaldı
Bu məhəbbət qəlbimdə.
Möcüzesiz möcüzəm,
Bir vaxt xoşbəxtdim ,mən də.

Ağrıyan ürəyimlə
dərdim böyüyür hər an.
Bir Allah bilir, necə,
içimi yeyir  zaman.

Elə bilirdim “eşqi “
sən  yaxşı taniyirsan,
Məğər  özün- özünü
heç yaxşı tanımırsan.

Sual dolu həyatda
tək sualım var sənə.
Noldu, niyə dəyişdin,
Söylə, axı səbəb nə?
Söylə, axı niyə mən?

# MÜNDERİCAT

ÖN SÖZ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
MƏN BİR HƏYAT HEKAYƏSİ . . . . . . . . . . . . . . . . .8
SEVƏNİN VARSA . . . . . . . . . . . . . . . . . . . . . . . . .10
DARIXMAQ NƏDİR . . . . . . . . . . . . . . . . . . . . . . . .11
GÜNAHKARI SƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . .12
BOŞ ÇƏRÇİVƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .13
YENƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .14
BİR GÖZÜM AĞLADI... . . . . . . . . . . . . . . . . . . . . . .15
EŞQİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .16
GÖZ YAŞIM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .17
YENƏ HEKAYƏMDƏ YER ALA BİLSƏN . . . . . . . . .18
SƏNİ SEVMƏK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .19
GEDİRƏM BU ŞƏHƏRDƏN . . . . . . . . . . . . . . . . . . .20
QAYIT GƏL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .21
MƏNİM DEYİLSƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . .22
DÖNDÜ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .23
İNCİMƏ ÜRƏYİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . .24
DÜNYANIN KASIB BƏNDƏSİ... . . . . . . . . . . . . . . . .25
BİZ DƏ BƏNZƏYİRİK . . . . . . . . . . . . . . . . . . . . . . .26
YANDIM ŞAM KİMİ . . . . . . . . . . . . . . . . . . . . . . . . .27
HAQSIZLIQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .27
SƏN OLMASAYDIN . . . . . . . . . . . . . . . . . . . . . . . . .28
KEÇMİŞİ KİLİTLƏYƏCƏM . . . . . . . . . . . . . . . . . . .29
İLHAM PƏRİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .30
SEVGİM İSRAF . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .31
SOYUQ BAXIŞ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .31
ŞAİRLƏR VƏ ŞEIRLƏR . . . . . . . . . . . . . . . . . . . . . .32
ŞƏHİD VƏ ANASI . . . . . . . . . . . . . . . . . . . . . . . . . .33

BİR QUCAQ VERGÜL . . . . . . . . . . . . . . . . . . . . . . . .34
SEVGİMLƏ SINAĞA ÇƏKMƏ, ALLAHIM . . . . . . . . .35
ELƏ ZAMANDA ÇIXDIN QARŞIMA . . . . . . . . . . . . .36
SƏSLİ SƏSSİZLİK... . . . . . . . . . . . . . . . . . . . . . . . .37
QƏLBİMDƏKİ SƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . .38
BU ÜRƏK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .39
ƏBƏDİ SEVGİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .40
SEVGİ NƏDİR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 41
SƏN OLDUN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .42
QALMADI . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .43
SƏNDƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .44
GECİKƏN MƏHƏBBƏTİM . . . . . . . . . . . . . . . . . . .45
TƏK BİR CÜMLƏMSƏN . . . . . . . . . . . . . . . . . . . . .47
SÖZ QOYMAMIŞAM . . . . . . . . . . . . . . . . . . . . . . .48
BARIŞAMMIRAM . . . . . . . . . . . . . . . . . . . . . . . . .48
GƏL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .49
UNUT MƏNİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .49
XATİRƏNLƏ YAŞAYACAĞAM . . . . . . . . . . . . . . . .50
ANA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .51
OĞLUMUN İŞİ ÇOX . . . . . . . . . . . . . . . . . . . . . . .52
SEVGİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .54
YORULMUŞAM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .55
AXAN SEVGİMİZ . . . . . . . . . . . . . . . . . . . . . . . . . .56
İLAHİ DUYĞU . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .57
ÖPÜŞSÜN GÖZLƏRİMİZ . . . . . . . . . . . . . . . . . . .58
ÖLƏN SEVGİMİZ . . . . . . . . . . . . . . . . . . . . . . . . .59
SEVGİ DƏ BİR NAĞILDI . . . . . . . . . . . . . . . . . . . .60
SÖZSÜZ NƏĞMƏM . . . . . . . . . . . . . . . . . . . . . . . .61
ÖZLƏR OLMUŞAM . . . . . . . . . . . . . . . . . . . . . . . .62
MADAM Kİ... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .63

MƏNİ GÖRÜŞƏ ÇAĞIR . . . . . . . . . . . . . . . . . . . . . . .64
NAKAM ÇƏRÇİVƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . .64
APARMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .65
ÖZÜM ÇƏKƏCƏM . . . . . . . . . . . . . . . . . . . . . . . . . .66
ÖMÜR KİTABIM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .67
GÖZLƏR YAŞ OLUB . . . . . . . . . . . . . . . . . . . . . . . .68
ƏLVİDA DEMƏYİM GƏLİR . . . . . . . . . . . . . . . . . . . .69
AYRILIQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .70
EŞİT ÜRƏYİMİN DÖYÜNTÜSÜNÜ . . . . . . . . . . . . .71
GÖRƏSƏN SƏNDƏMİ BELƏSƏN MƏNƏ . . . . . . . .72
ÜRƏYİM XƏYANƏT ETMƏYƏCƏK . . . . . . . . . . . . .73
AĞLAYAN XATİRƏLƏR . . . . . . . . . . . . . . . . . . . . . .74
BİZ BİZƏ GƏLƏK . . . . . . . . . . . . . . . . . . . . . . . . . .75
ANA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .76
GÖZƏLLİYİN GÜNAHI . . . . . . . . . . . . . . . . . . . . . .77
ŞEİR EŞQİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .78
QƏRİBƏ HƏYAT . . . . . . . . . . . . . . . . . . . . . . . . . .79
YORĞUN ÜRƏYİMİN YUXUSU GƏLİR . . . . . . . . . .80
XƏYALIM QALDI . . . . . . . . . . . . . . . . . . . . . . . . . .81
BU BAHAR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .83
QAÇMAQ İSTƏYİRƏM . . . . . . . . . . . . . . . . . . . . . .84
VƏTƏN SEVGİSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . .85
DÜNYANIN ƏN GÖZƏL SÖZÜDÜR ANA . . . . . . . .86
SƏSSİZLİK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .87
İTİRDİN MƏNİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .88
BİZ AYRILSAQ MƏSLƏHƏTDİ . . . . . . . . . . . . . . . .89
UNUDA BİLMƏYƏCƏKSƏN . . . . . . . . . . . . . . . . . .90
KİMSƏN AY ADAM . . . . . . . . . . . . . . . . . . . . . . . .91
GÖZƏL SEV MƏNİ . . . . . . . . . . . . . . . . . . . . . . . . .92
GECƏ VƏ GÜNDÜZ . . . . . . . . . . . . . . . . . . . . . . .93

GÖZLƏDİM YUXUMA QONAQ GƏLƏSƏN. . . . . . .94
SƏNSİZ HƏYAT ZİNDANDIR . . . . . . . . . . . . . . . . .95
BİLMƏDİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .96
DARIXMIŞAM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .97
BAĞIŞLA, DÖNƏ BİLMƏRƏM . . . . . . . . . . . . . . . .97
SUSACAQ SEVƏN ÜRƏYİM . . . . . . . . . . . . . . . . .98
ŞAİR OLMASAM DA, ŞAİR TƏBLİYƏM. . . . . . . . . .99
GÖZƏL DEYİLMİŞ . . . . . . . . . . . . . . . . . . . . . . . .100
DAHA MƏNSİZ YAŞA . . . . . . . . . . . . . . . . . . . . . .101
QARABAĞ BİZİMDİR . . . . . . . . . . . . . . . . . . . . . .102
YANDIM ŞAM KİMİ . . . . . . . . . . . . . . . . . . . . . . . .103
YENİDƏN SEVMƏK . . . . . . . . . . . . . . . . . . . . . . .105
BAXMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .106
SEVGİSİZ EVLİLİK . . . . . . . . . . . . . . . . . . . . . . . .107
SƏN MƏNİM SEVGİMƏ LAYİQ DEYİLSƏN . . . . . .110
TÜRK ŞƏHƏRİDİR KƏRKÜK . . . . . . . . . . . . . . . .111
ÜRPERTİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .112
SEV MƏNİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .113
BU NECƏ EŞQ, SEVGİLİM . . . . . . . . . . . . . . . . . .113
HİCRANIN SƏSİ . . . . . . . . . . . . . . . . . . . . . . . . .115
SEVƏRKƏN AYRILMAYAQ . . . . . . . . . . . . . . . . . .116
ARZUSUZ BİR ÜRƏK . . . . . . . . . . . . . . . . . . . . . .117
KİÇİK QIZIN BÖYÜK HEKAYƏSİ . . . . . . . . . . . . . .118
ELƏ İŞLƏR VAR Kİ... . . . . . . . . . . . . . . . . . . . . . .120
SƏNİ SEVMƏK . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .121
TÜRKÜM BEN TÜRKÜM . . . . . . . . . . . . . . . . . . . .122
İYİKİ DOĞMUŞSUN ECE . . . . . . . . . . . . . . . . . . .123
CANIM ANAMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . .124
GETMƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .125
SEVGİ NAĞILIMIZ . . . . . . . . . . . . . . . . . . . . . . . .126

SEVGİM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .127
ÜŞÜYƏN XATİRƏLƏR . . . . . . . . . . . . . . . . . . . . . . .128
AZƏRBAYCAN QADINI . . . . . . . . . . . . . . . . . . . . . .129
QADIN NƏ İSTƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . .130
AXTARIRAM YERDƏ MƏN ”GÖY ÜZÜNÜ” . . . . . . .131
MƏHKUM OLDUM BU DƏRDƏ . . . . . . . . . . . . . . . .132
HƏR ŞEYƏ BİR AZCA ”SƏN” QATACAĞAM ” . . . .133
KÖRPƏ İLƏ ALLAHIN SHBƏTİ . . . . . . . . . . . . . . . .134
DÜNYANIN ƏN BÖYÜK AŞİQİ MƏNƏM . . . . . . . . .135
MƏNİM HƏR İKİ DÜNYAM . . . . . . . . . . . . . . . . . . .136
”MƏN DƏ İNSANAM” . . . . . . . . . . . . . . . . . . . . . . .137
EŞQİN DÜNYASI . . . . . . . . . . . . . . . . . . . . . . . . . .139
OĞLUMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .140
NƏVƏM KƏRƏMƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . .141
HƏYAT YOLDAŞIMA . . . . . . . . . . . . . . . . . . . . . . . .142
İLK ADDIMIN MÜBARƏK . . . . . . . . . . . . . . . . . . . .142
ATAMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .143
SXOJU S UMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .143
SƏN MƏNƏ, MƏN SƏNƏ MÖHTAC . . . . . . . . . . . .144
NƏ YAXŞI Kİ... . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .145
ACI HƏQİQƏTLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . .146
XOŞBƏXTLİK QOY GƏZSİN SƏNİNLƏ QOŞA . . . .147
GÜNƏŞ DOĞANDA . . . . . . . . . . . . . . . . . . . . . . . .148
ƏN UZUN SEVDALAR YARIM QALANDI . . . . . . . .149
MƏHKUM OLDUM BU DƏRDƏ . . . . . . . . . . . . . . . .150
CANIM OĞLUMA . . . . . . . . . . . . . . . . . . . . . . . . . .151
XÖŞBƏXT OL QIZIM... . . . . . . . . . . . . . . . . . . . . . .152
SƏNSİZLƏMİŞƏM . . . . . . . . . . . . . . . . . . . . . . . . .153
MƏN EŞQİN ÖZÜYƏM . . . . . . . . . . . . . . . . . . . . . .154
SUSDUĞUNA İNANDIM . . . . . . . . . . . . . . . . . . . . .155

DARIXIRAM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .156
BAX YENƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .157
SON MƏKTUB . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .158
DAHA SƏNƏ MƏKTUB YAZAN DEYİLƏM . . . . . . .159
GETMƏK LAZIM . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .160
ŞEİRİM KİMİ SEVİRƏM . . . . . . . . . . . . . . . . . . . . .161
İLK MƏHƏBBƏT . . . . . . . . . . . . . . . . . . . . . . . . . .162
GERİ DÖN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .163
YOLÇULUQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .164
SEVGİMİZ XƏSTƏLƏNİB . . . . . . . . . . . . . . . . . . . .165
ŞEİRLƏR . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .166
HƏYAT SƏNDƏ BAŞLAR, SƏNDƏ ÖLƏR . . . . . . .166
TƏK DOSTUM QƏLƏM . . . . . . . . . . . . . . . . . . . . .167
VƏTƏNDƏ İLK QAR . . . . . . . . . . . . . . . . . . . . . . .168
AĞLAMAQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .169
YAMAN KÖVRƏLMİŞƏM . . . . . . . . . . . . . . . . . . .170
SƏN QATACAĞAM . . . . . . . . . . . . . . . . . . . . . . . .172
XATİRƏLƏRDƏ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .173
GÜCÜN YETMƏZ . . . . . . . . . . . . . . . . . . . . . . . . .174
NİYƏ MƏN . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .175